

Milli azadlıqdan şirin nemət yoxdur!

# 5 yaşlı Zəfər - Bakı hərbi parada hazırdır


YENİ AZƏRBAYCAN

8 noyabr 2025-ci il, şənbə
№ 204 (7031)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.





İlham Əliyev
@azpresident

8 noyabr Şanlı Qələbə Günü kimi əbədi tarixə düşəcək. Biz Şuşaya qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır! Gözün aydın olsun, Azərbaycan!

Translate Tweet

1:56 PM · Nov 8, 2020 · Twitter Web App

İlham Əliyev
@azpresident

ƏZİZ ŞUŞA, SƏN AZADSAN! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ bizimdir! QARABAĞ AZƏRBAYCANDIR!

Translate Tweet

1:56 PM · Nov 8, 2020 · Twitter Web App



# Liderliyin heyrətamiz və heyranedici nümunəsi...

Bax səh. 3

## Rəcəb Tayyib Ərdoğandan İlham Əliyevə Zəfər təbriki

Bax səh. 2

## Qardaşlığın nümunəsi!

Bax səh. 2

## Qürur və məğrurluğun təcəssümü - Zəfər tariximiz!

Bax səh. 5

## Siyasi həmrəylik milli gücün ifadəsi kimi...

Bax səh. 4

## 23 partiyanın Zəfər bəyanatı

Bax səh. 4

## 44 günün dastanı...

Bax səh. 6

## Zəngəzur dəhlizində sona doğru

Bax səh. 6

## C5+1 formatı aktivləşir

Bax səh. 7



# 5 yaşlı Zəfər - Bakı hərbi parada hazırdır

Artıq 5-ci ildir ki, dünya azərbaycanlıları noyabrı zəfər ayı kimi qeyd edir. Məhz 2020-ci il noyabr ayının 10-da imzalanan üçtərəfli Bəyanatla 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbəmiz rəsmən təsdiqini tapıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əsas memarı olduğu bu Qələbə son 200 illik tariximizin ən parlaq səhifəsidir. Bu Qələbəyədək məmləkətimiz çoxlu sayda savaşların məkanı olub, zaman-zaman torpaq itkilərinə məruz qalmışıq, əzəli torpaqlarımızda Ermənistan adlandırılan dövlət qurulub. 44 günlük müharibədə itkilər seriyasına, nəhayət, son qoyuldu. Vətən müharibəsində qazanılan Qələbə hər bir azərbaycanlı üçün sonsuz qürur mənbəyidir və tariximizdə əbədi qalacaq. Şanlı Zəfərimiz Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün, qüdrətinin və vətəndaş həmrəyliyinin rəmzidir.

Şanlı Zəfərin 5 illiyi münasibətilə Bakıda hərbi parad keçiriləcək. Son bir neçə gündə paytaxtımızda hərbi parada genişmiqyaslı hazırlıqlar aparılır. Xalqımızın Qələbəni təntənəli şəkildə qeyd etməyə mənəvi haqqı var. Çünki bu Qələbəni heç kim bizə hədiyyə etməyib. Onu igid əsgər və zabitlərimiz ağır döyüşlərdə misilsiz şücaətlər göstərməklə, canlarını Vətən torpağı uğrunda fəda etməklə, şəhidlik zirvəsinə ucalmaqla qazanıblar. Hərbi paradda hər bir azərbaycanlının qürur və güvənc yeri olan yenilməz Ordumuzun gücü bir daha dünyaya nümayiş etdiriləcək.

# Rəcəb Tayyib Ərdoğandan İlham Əliyevə Zəfər təbriki

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident, Əziz Qardaşım.

Vətən müharibəsində Zəfərin beşinci ildönümü münasibətilə xalqım adından və öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu şanlı Zəfərdən sonra həyata keçirilən sülh prosesi çərçivəsində atılan konstruktiv addımların davamlı bir razılaşma ilə nəticələnəcəyinə ümid edirəm. İnanıram ki, Qafqazda sabitliyin hökm sürdüyü sülh mühiti bütün regionun rifahına xidmət edəcək və Qafqazın qlobal siyasətdə strateji əhəmiyyətini daha da artıracaqdır.

Azad edilmiş vətən torpaqlarının sürətli dirçəlişi və yenidən qurulmasında əldə edilən irəliləyiş təqdirəlayiqdir. Bu əlamətdar günün ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci hesab etdiyi qardaş Azərbaycanın həm regionda, həm də ondan kənarda inamlı addımlarla nail olduğu irəliləyişin şahidi olmaqdan böyük qürur hissi keçirir.

"Bir millət, iki dövlət" prinsipi ilə qurulmuş yüksəksəviyyəli münasibətlərimiz və öz gücünü ortaq taleyimizdən alan sarsılmaz qardaşlıq bağlarımız keçmişdə olduğu kimi, bu gün də möhkəmlənməkdə davam edir.

Güclü təməl üzərində qurulmuş müttəfiqlik münasibətlərimiz və bütün sahələrdə nümayiş etdirdiyimiz xüsusi əməkdaşlıq regional sülhün, etimadın və sabitliyin ən vacib sütunlarından birinə çevrilmişdir.

Şübhəsiz ki, Sizin müdrik rəhbərliyinizlə can Azərbaycanın əldə etdiyi nailiyyətlər bundan sonra da regionumuzun çiçəklənməsinə əhəmiyyətli töhfələr verəcəkdir.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı, dost və qardaş Azərbaycan xalqına xoş günlər və rifah arzulayıram.

**Rəcəb Tayyib Ərdoğan**
**Türkiyə Respublikasının Prezidenti**

## Şanlı Qələbənin əzəmətli nümayişi - Zəfər paradı

Xalqımız, dövlətimiz 44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbəni ilk dəfə 10 dekabr 2020-ci il tarixində Bakının Azadlıq meydanında keçirilən Zəfər paradı ilə qeyd etdi. Həmin tarixədək Azadlıq meydanı, Bakı küçələri çoxlu sayda paradlara, izdihamlı tədbirlərə şahidlik etmişdi. Zəfər paradının isə xüsusi bir mənası var idi. Xalqımız bu tənətənəni düz otuz il həsrətlə və böyük inamla gözləmişdi. Mənfur düşmən havadarlarının dəstəyinə arxalanmaqla torpaqlarımızdan çıxmaq istəmirdi, hətta cəzasız qaldığından ruhlanaraq yeni ərazilər uğrunda yeni müharibə istəyini gizlətmirdi. Özləri barədə miflər düzəldən Ermənistan silahlı qüvvələrinin, Qarabağdakı separatçı rejimin təmsilçiləri tanklarla Bakıya gələcəklərini bəyan edirdilər. Erməni hərbiçiləri, separatçı rejimin başında dayananlar və onların silahları həqiqətən də Bakıya gəldi. Ancaq qolları qandallı şəkildə, hərbi qənimət qismində. 44 günlük müharibədə "döyüşkən erməni xalqı" mifi tar-mar oldu. Bu necə döyüşkən ordu idi ki, onun əsgər və zabitləri Azərbaycan hərbçilərinin ayaq səslərini eşidən kimi gizlənməyə və yaxud qaçmağa yer axtarırdılar. Erməni mətbuatının yazdığına görə müharibə günlərində 11 mindən çox erməni hərbiçisi fərarilik edərək döyüş meydanından qaçıb. Azərbaycan Ordusu isə 44 gün ərzində mümkünsüz görünəni reallığa çevirdi, hər gün döyüş meydanlarında qələbələr qazandı, hər gün irəlilədi və sonda ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla təmin olundu. Bu, tarixi ədalətiin, beynəlxalq hüququn bərpası idi. Möhtəşəm Zəfər paradının keçirilməsi də Azərbaycanın şanlı Qələbəsinin növbəti əzəmətli və təntənəli nümayişi oldu. Paradda "Qarabağ Azərbaycandır!" şüarı bir daha qürurla ifadə olundu. Paraddakı çıxışında Zəfərin qürurunu və sevincini xalqla bölüşən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi.

2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradına işğaldan azad edilmiş ərazilərimizdə qürurla və əzəmətlə dalğalandırılan üçrəngli bayrağımız gətirildi. Bu, xalqımızın sonsuz qürur və iftixar mənbəyi kimi dövlətçilik tariximizə qızıl hərflərlə əbədi həkk olunan müstəsna hadisədir. Prezident, Müzəffər Ali Baş Komandan xüsusi olaraq vurğulayıb: "Yadımdadır, 2018-ci ildə biz Azərbaycan Ordusunun yaradılmasının 100 illiyini qeyd edərkən mən paradda çıxış edərək demişdim ki, indi parada 2016-cı il döyüşləri zamanı işğaldan azad edilmiş Lələtəpə ərazisində ucaldılmış bayrağı gətirəcəklər. O vaxt demişdim ki, gün gələcək, biz azad edilmiş ərazilərdə ucaldılmış bayrağı Zəfər paradına gətirəcəyik. Həmin gün gəldi!"

Zəfər paradı, həmçinin dünyaya Azərbaycan-Türkiyə həmrəyliyinin, dostluğunun, qardaşlığının nə qədər möhkəm olduğunu nümayiş etdirdi. Türkiyə Prezidentinin Zəfər paradında iştirakı təsadüfi deyildi. Məhz qardaş Türkiyə Vətən müharibəsində ədalətli müharibə aparan Azərbaycana güclü mənəvi-siyasi dəstək göstərdi və bu da bizim özümüzə inam hissimizi daha da gücləndirdi. Prezident İlham Əliyev paradda çıxışı zamanı bu məqamlara toxunaraq bildirib: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk".

# Qardaşlığın nümunəsi!



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 7-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşıladı.

Dövlətimizin başçısı və Pakistanın Baş naziri birgə foto çəkdirdilər.

Görüşdə dövlətimizin başçısı Vətən müharibəsində şanlı Qələbənin beşinci ildönümü münasibətilə sabah (bu gün - red.) Bakıda keçiriləcək hərbi paradda iştiraka görə Məhəmməd Şahbaz Şərifə təşəkkürünü bildirdi, bunu ölkələrimiz arasında qardaşlığın nümunəsi kimi qiymətləndirdi.

Parada dəvətə görə minnətdarlığını bildirən Pakistanın Baş naziri burada iştirak etməkdən məmnunluğunu vurğuladı. Qonaq Prezident İlham Əliyevi və xalqımızı möhtəşəm Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edərək, paytaxt İslamabadın Azərbaycanın Qələbəsi şərəfinə ölkəmizin üçrəngli bayrağı ilə bəzədildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü ifadə etdi.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyi bildirildi, Azərbaycan və Pakistanın beynəlxalq təşkilatlarda bir-birinə göstərdikləri qarşılıqlı dəstəyə toxunuldu. İkitərəfli ticarət dövriyyəsində artım məmnunluqla vurğulanaraq, siyasi münasibətlərimizin ruhuna uyğun olaraq iqtisadi-ticari əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycan tərəfindən Pakistandan idxal olunan düyüyə və 15 adda digər məhsula güzəştli ticarət tariflərinin tətbiqinin iqtisadi-ticari əlaqələrin inkişafında mühüm amil olduğu bildirildi.

Bu ilin birinci yarısında Hökumətlərarası Kommisiyanın iclasının uğurla keçirildiyi xatırlandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələləri müzakirə edildi.

Hökumət nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin tezliklə qarşılıqlı səfərlər həyata keçirməsi ilə bağlı razılıq əldə olundu.

İşğaldan azad olunmuş ərazilərimizdə icra edilən bərpa və quruculuq işlərində Pakistan şirkətlərinin iştirakı ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə ikitərəfli münasibələrimizin perspektivləri müzakirə edildi.



Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq tapşırığına əsasən, noyabrın 8-də Bakı şəhərində Zəfər Gününün beşinci ildönümü münasibətilə keçiriləcək hərbi parada hazırlıqla bağlı Azərbaycan Silahlı Qüvvələrinin, o cümlədən Azərbaycan Ordusunun bölmələri ilə məşqlər keçirilib.

Hazırlıq məşqləri zamanı Bakı şəhərində və ətraf ərazilərdə aviasiya vasitələrinin uçuşları, avtomobil və döyüş texnikalarının müəyyən edilmiş marşrutlar üzrə hərəkəti və yerdəyişməsi icra olunub.

## Bakıda, Xankəndidə, Şuşada və digər ünvanlarda keçirilən yürüşlər

Noyabrın 6-da paytaxtın müxtəlif küçə və prospektlərində hərbi orkestrlərin müşayiəti ilə hərbçilərin yürüşləri başlayıb. 8 Noyabr - Zəfər Günü münasibətilə keçirilən yürüşlərdən əvvəl Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra hərbçilərin üç marşrut üzrə yürüşlərinə start verilib.

Yürüşlər Şəhidlər xiyabanı - "Alov Qüllələri" Kompleksi - "İçərişəhər" metrosu - Qala Qapısı - Azərbaycan Dövlət Kukla teatrı - "Azneft" dairəsi - Bəhram Gur heykəli; Q.Musabəyov parkı - Əbdürrəhim Bəy Haqverdiyev küçəsi - Hüseyn Cavid prospekti - Hüseyn Cavid parkı - Parlament prospekti - Şəhidlər xiyabanı; "Olimpik Star" İdman və Əyləncə Mərkəzi - Səməd Vurğun küçəsi - Zabitlər parkı - Bakı Dövlət Sirki - Heydər Əliyev Sarayı - İ.Nəsimi heykəli - Neftçilər prospekti istiqamətləri üzrə təşkil olunub.

Hərbçilərin marşrutlar üzrə Bakıdakı yürüşləri saat 12:00-dək davam edib.

Qeyd edək ki, Sumqayıt, Naxçıvan, Xankəndi, Şuşa və Laçında da müəyyənləşdirilmiş marşrutlar üzrə hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri təşkil olunub.

*Mübariz FEYİZLİ*



# Azərbaycan-Slovakiya: qarşılıqlı anlaşma və dəstəyə əsaslanan ikitərəfli münasibətlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Slovakiya Baş nazirinin müavini və müdafiə naziri Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə dövlətimizin başçısını təbrik edərək, bununla bağlı keçiriləcək hərbi parada dəvətə görə təşəkkürünü bildirdi.

Qonaq, həmçinin Slovakiyanın Baş naziri Robert Fitsonun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Slovakiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Robert Kalinakın rəhbərlik etdiyi nümayəndə heyətinin sabah Bakıda keçiriləcək Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradda iştirakını yüksək qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ABŞ Prezidentinin iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması məqsədilə imzalanmış sənədlərin tarixi əhəmiyyətinə toxunaraq, bunun regionda davamlı sülhün təmin edilməsində rolunu vurğuladı.

Robert Kalinak Prezident İlham Əliyevin Slovakiyaya səfərini məmnunluqla gözlədiklərini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Slovakiya arasında qarşılıqlı anlaşma və dəstəyə əsaslanan ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirildi, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi və hərbi-sənaye sahələrində genişləndirilməsi üçün imkanların olduğu diqqətə çatdırıldı.

Həmçinin Slovakiyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əlaqələrinin genişləndirilməsinə göstərdiyi dəstəyə toxunuldu.

# Liderliyin heyrətamiz və heyranedici nümunəsi...

## Güc, ədalət və məsuliyyətin sintezi: regional sabitlikdən qlobal aktorluğa gedən yol...





XXI əsr bəşəriyyət üçün yeni çağırışlar dövrü kimi tarixə düşür. Bu əsrin hələ ilk 25 ili göstərdi ki, qlobal sabitlik, beynəlxalq münasibətlərin inkişafı və ədalətin təminində ən həlledici amil məhz lider amilidir. Müasir dövrdə istər iki, istərsə də çoxtərəfli münasibətlərin tənzimlənməsi, münaqişələrin aradan qaldırılması, milli maraqların müdafiəsi, beynəlxalq hüquqa hörmət, həm də bəşəri problemlərin həlli birbaşa olaraq dövlət başçılarının siyasi uzaqgörənliyindən asılıdır, liderlərin problemlərin həllində göstərdiyi təmkinlə, davranışla və ədalət hissi ilə əlaqəlidir.

Azərbaycan isə bu tarixi həqiqətin canlı sübutudur. Ölkəmiz müstəqilliyinin ilk onilliklərində işğal, təcavüz və ədalətsizliklə üz-üzə qaldı. Uzun illər ərzində Azərbaycanın sülh və beynəlxalq hüquqa əsaslanan çağırışlarına baxmayaraq, dünya ədalətsiz ikili standartların girovuna çevrilmişdi. Qarabağ həqiqətləri, yüz minlərlə insanın doğma yurdlarından didərgin düşməsi, şəhərlərin yerlə-yeksan edilməsi beynəlxalq ictimaiyyət tərəfindən çox zaman susqunluqla qarşılanırdı. Qlobal dünya sanki bu ədalətsizlik qarşısında donub qalmışdı - erməni lobbisinin təhriki və maliyyə gücü ilə işğal faktına göz yumulurdu, ədalətsizlik qarşısında sükut nümayiş etdirilirdi.

Lakin 2020-ci ilin payızı tarixi dönüş nöqtəsi oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz torpaqlarını azad etdi, 30 illik işğala son qoydu və suverenliyini bərpa etdi. Bu qələbə tək hərbi qələbə deyildi - həm də siyasi, diplomatik, psixoloji və mənəvi qələbə idi. İlham Əliyev dünya siyasətində öz dövlətinin milli maraqlarını qorumağı, beynəlxalq hüququn prinsiplərini bərpa etməyi bacaran və ədalət hissindən bir an belə ayrılmayan lider kimi tanındı. 44 günlük Vətən müharibəsi onun həm Ali Baş Komandan, həm də böyük dövlət xadimi kimi parlaq imzasını tarixə yazdı.

Vurğulandığı kimi, bu qələbənin mahiyyəti yalnız torpaqların azad edilməsində deyil, ədalətin bərqərar olmasında idi. Azərbaycan nə müharibədən əvvəl, nə müharibə dövründə, nə də müharibədən sonra heç vaxt revanşist məqsədlər güdmədi, başqa dövlətin ərazisində gözü olmadı. Prezident İlham Əliyevin ifadəsi ilə desək: “Bizim məqsədimiz yalnız işğal altında olan torpaqları azad etmək idi.”

### Ədalətə sədaqət və beynəlxalq nüfuz: Uitkoffun etirafı...

Azərbaycan Prezidentinin bu ədalətli, yüksək humanizmə söykənən mövqeyi tək xalqımız tərəfindən deyil, beynəlxalq ictimaiyyət tərəfindən də dərin hörmətlə qarşılanır, qiymətləndirilir. Son illərdə bir çox qlobal siyasətçilər İlham Əliyevin sülhpərvər və məsuliyyətli liderliyini yüksək qiymətləndiriblər - bir misala diqqət çəkək: bu ilin avqust ayının 8-də Ağ Evdə yüksək səviyyəli qonaq kimi qəbul olunan Azərbaycan Prezidenti İlham Əliyevə göstərilən ehtiram az-az dünya liderlərinə göstərilir. Nəticə göz önündədir - Azərbaycan LİDERİ Ağ Evdə Donald Trampla yanaşı, əyləşərək siyasi məsələlər haqqında fikirlərini ifadə etdi, regionun gələcəyi ilə bağlı proseslər haqqında qətiyyətini və diktəsini ortaya qoydu. Donald Trampın Azərbaycan Prezidentinə münasibəti isə yayılan video və fotolarda tam şəkildə öz əksini tapır - yaxın dost, tərəfdaş, qalib Prezident - Azərbaycan xalqının və dövlətinin mübarizlik ruhunu, cəmiyyətin minilliklərdən süzülüb gələn milli-mənəvi dəyərlərinin simvoluna çevrilmiş bir Prezident...

Bu faktı daha da möhkəmləndirən növbəti bir fakt: ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanla 30 ildən artıq davam edən münaqişənin həlli istiqamətində göstərdiyi səyləri yüksək qiymətləndirib. Uitkoff bu fikri Mayamidə keçirilən Amerika Biznes Forumu çərçivəsində səsləndirib. Diplomat çıxışı zamanı avqust ayında ABŞ Prezidenti Donald Trampın Oval kabinetdə İlham Əliyevlə apardığı söhbət barədə də danışıb. Bu, indiyəcən bilinməyən heyrətamiz bir məqamdır. Onun sözlərinə görə, Tramp avqust ayında Oval kabinetdə keçirilən görüşdə 44 günlük müharibənin gedişi barədə birbaşa sual verib.

Uitkoff qeyd edib ki, Tramp həmin görüşdə İlham Əliyevdən soruşub: “Sənin ordun daha üstün idi. Niyə hücumu genişləndirmədin, niyə davam etdirmədin?”

Prezident İlham Əliyevin cavabı isə belə olub: “Bizim məqsədimiz yalnız işğal altında olan torpaqları qaytarmaq idi. Heç vaxt daha artığını istəməmişik”.

Stiv Uitkoff Prezident İlham Əliyevin bu cavabını yüksək qiymətləndirib: “Gücə sahib olub ondan sui-istifadə etməmək - bu, həqiqi dövlət liderinin nümayiş etdirdiyi heyrətamiz qərardır”.

Bu hadisə özlüyündə Prezident İlham Əliyevin davranış fəlsəfəsinin, sülhpərvərliyinin və beynəlxalq hüquqa sədaqətinin bariz sübutudur.

### Ədalətə və beynəlxalq hüquq prinsiplərinə sarsılmaz bağlılıq

Müasir dünyanın mürəkkəb geosiyasi mənzərəsində Prezident İlham Əliyev liderliyin yeni modelini formalaşdırıb. O, qərarlarında həm milli maraqları, həm də regional və qlobal ədalət balansını qorumağı bacarır. Bu səbəbdən də bu gün dünyanın aparıcı dövlətləri Azərbaycanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaqda maraqlıdırlar. Prezident İlham Əliyevin siyasi kursu Azərbaycanın etibarlı tərəfdaş, sözünə sadiq dövlət imicini daha da möhkəmləndirib. Onun rəhbərliyi ilə Azərbaycan beynəlxalq aləmdə etibara, ədalətə və məsuliyyətə əsaslanan diplomatiya nümunəsi yaradıb. “Prezident İlham Əliyevin sözü onun imzasıdır” - bu ifadə artıq diplomatik leksikonun bir hissəsinə çevrilib. Azərbaycan həm enerji siyasətində, həm nəqliyyat layihələrində, həm də humanitar əməkdaşlıq platformalarında sadiq və dayanıqlı tərəfdaş kimi qəbul olunur. Bu etimadın əsasında isə Prezidentin ədalət və beynəlxalq hüquq prinsiplərinə sarsılmaz bağlılığı dayanır. Məhz buna görədir ki, Azərbaycan bu gün regionda sabitlik və əməkdaşlığın əsas dayağına çevrilib.

Prezident İlham Əliyev modern cəmiyyətdə lider obrazının ən mühüm keyfiyyətlərini özündə birləşdirən şəriksiz liderdir. Dövlət başçısı dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin milli-strateji maraqlarını qoruya bilmək qabiliyyəti ilə Özünün əsl siyasi lider olduğunu hər zaman isbatlayıb. Məhz Prezident İlham Əliyevin uğurla yürütdüyü siyasət nəticəsində çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb.

Vurğulandığı kimi dünyanın bütün siyasi xadimləri Prezident İlham Əliyevin ölkəsini müasir beynəlxalq münasibətlər sistemində müstəqil siyasət həyata keçirən güclü və nüfuzlu dövlət, həmçinin etibarlı tərəfdaş kimi tanıtdığını etiraf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs yalnız bir hədəfə - ölkəmizin maraqlarının təmin olunmasına yönəlib. Bu isə qarşıya qoyulan strateji hədəflərə çatmaq üçün ən güclü vasitədir. Prezident İlham Əliyevin böyük lider olmasının ən bariz göstəricilərindən biri siyasi kursumuzun davamlı, qətiyyətli və ardıcıl həyata keçirilməsidir. Azərbaycan bütün ölkə və təşkilatlara münasibətdə vahid mövqedən çıxış edib, dostluq və tərəfdaşlıq münasibətlərini hansısa geostrateji təsirə məruz qalmadan müəyyənləşdirib, ikitərəfli və çoxtərəfli münasibətlərdə, dünya siyasətində fəal təmsilçilikdə ali geosiyasi iradəsini ortaya qoyur. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan qarşıdurma, rəqabət məkanı deyil, tərəfdaşlıq və əməkdaşlıq məkanıdır. Xarici siyasətimizin strateji əsaslarından biri olan bu ideya, onun konstruktiv məzmunu və real siyasi proseslərdə özünü doğrultması beynəlxalq münasibətlərin hazırkı mürəkkəb mərhələsində Azərbaycanı strateji tərəfdaşlıq üçün cazibə mərkəzinə çevirir. Dünyanın aparıcı paytaxtlarında Cənubi Qafqazın strateji geocoğrafi üstünlüklərinin tanınması və qəbul edilməsi Prezident İlham Əliyevin qlobal siyasi fəhminin, gücünün və böyüklüyünün göstəricisidir.

### Qalibin böyüklüyü: Ermənistanla davranış nümunəsi

II Qarabağ müharibəsinə nəzərən bəzi siyasi konekretləşmələr Azərbaycanın mövqeyinə açıqlıq gətirir - qələbədən 5 il keçəndən sonra bu gün də Azərbaycan qalib dövlətdir, lakin bu qələbə qisas və revanşizmlə deyil, ədalət və bərabərlik prinsipləri ilə müşayiət olunur.

- Azərbaycan qalib tərəf olmasına baxmayaraq, Ermənistanın ərazisinə girmədi, revanşist davranış sərgiləmədi.

- Ermənistan ordusu darmadağın edildikdən sonra Azərbaycan tərəfi dərhal sülh danışıqları təşəbbüsü ilə çıxış etdi.

- Azərbaycan qalibin diktəsini deyil, bölgədə uzunmüddətli sülhün və əməkdaşlığın bərpasını təklif etdi.

Budur əsl ədalətli davranış kodeksi: Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, məqsəd qalibiyyətin siyasi nəticələrini deyil, bölgədə ədalətli və sabit nizamı bərpa etməkdir. Azərbaycan bu gün regionda iqtisadi və humanitar əlaqələrin bərpasına yönəlmiş addımlar atır. Ermənistana yükdaşıma embarqosunun aradan qaldırılması, Ermənistan istiqamətində dəmir yolu daşımalarına icazə verilməsi - bütün bunlar qalib xalqın və liderin böyüklüyünü nümayiş etdirir. Bu davranış ədalətli qalibin böyüklüyü, liderin sülhə sədaqəti kimi tarixə düşür.

### Yeni qlobal nizamın memarı...

Prezident İlham Əliyev həm də qlobal miqyasda liderlik missiyası daşıyır. Son 100 ildə Şərq ilə Qərbi, Cənub ilə Şimalı bu qədər yaxınlaşdıran lider tapmaq çətindir. Azərbaycan Prezidenti müasir beynəlxalq sistemdə əməkdaşlıq fəlsəfəsinin lideridir. O, ölkələri qarşıdurma deyil, ortaq maraqlar ətrafında birləşdirməyə çalışır. Bu mənada da Prezident İlham Əliyevin xidmətləri çoxşaxəlidir:

- Yaxın və Orta Şərqdə sülh təşəbbüslərinə verdiyi dəstək;

- Avropanın enerji təhlükəsizliyinin təminində həlledici rolu;

- Mərkəzi Asiyanın qlobal inteqrasiyasına verdiyi töhfələr;

- Türk Dövlətləri Təşkilatının güclənməsi və türkdilli xalqların həmrəyliyinə verdiyi stimul;

- Qlobal Şimal və Cənub arasında iqtisadi əlaqələrin genişlənməsinə yönəlmiş təşəbbüslər.

Bu siyahını daha da genişləndirmək olar - kiçik ada dövlətlərinin hüquqlarının müdafiəsi, kolonializmə qarşı mübarizədə liderlik, zəif dövlətlərin maraqlarının qorunması və bu kimi onlarla misal Azərbaycan Prezidentinin qlobal siyasi mühitdə tutduğu mövqeni açıq xarakterizə edir.

Bütün bunlar İlham Əliyevin vahid və ədalətli dünya nizamı konsepsiyasının elementləridir. Onun siyasəti konfrontasiyaya yox, əməkdaşlığa, bölünməyə yox, birliyə, qarşıdurmaya yox, sülhə söykənir.

### “Yaşıl enerji” dövrünün öncül lideri...

Bəlli olduğu kimi, XXI əsrin yeni strateji prioritetlərindən biri bəşəriyyətin enerji siyasətində dönüş yaratmaq, karbon asılılığından uzaqlaşmaq və təmiz texnologiyalara keçidi təmin etməkdir. İqlim böhranı, resursların tükənməsi və ekoloji balansın pozulması artıq dövlətlərin inkişaf modelini yenidən düşünməyə vadar edib. Məhz bu şəraitdə Prezident İlham Əliyevin uzaqgörən siyasəti Azərbaycanın regional deyil, qlobal “yaşıl enerji mərkəzi”nə çevrilməsinə imkan yaradıb. Onun rəhbərliyi ilə ölkəmiz son illərdə enerji istehsalında tarazlaşdırılmış model qurub: bir tərəfdən ənənəvi enerji mənbələrinin təhlükəsiz ixracını təmin edir, digər tərəfdən isə alternativ və bərpaolunan enerji sektoruna böyük sərmayələr yönəldir.

Azərbaycanın “yaşıl enerji strategiyası” artıq beynəlxalq miqyasda nümunə kimi təqdim olunur. Prezident İlham Əliyev bu strategiyanı təkcə iqtisadi layihə kimi deyil, həm də ekoloji məsuliyyət, regional sabitlik və beynəlxalq əməkdaşlıq fəlsəfəsi kimi təqdim edir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının “yaşıl enerji zonaları” elan edilməsi həm simvolik, həm də strateji addımdır. Bu bölgələrdə günəş, külək və hidroenerji potensialının reallaşdırılması təkcə müasir texnoloji inkişaf deyil, həm də azad edilmiş torpaqların ekoloji reabilitasiyası anlamına gəlir.

Bütün bunların fonunda Azərbaycanın COP29-a ev sahibliyi etməsi təsadüfi deyil. Bu, İlham Əliyevin uzunmüddətli strateji baxışının məntiqi nəticəsidir. Onun siyasətində “enerji təhlükəsizliyi” ilə “ekoloji təhlükəsizlik” eyni dərəcədə önəm daşıyır. Prezidentin çıxışlarında tez-tez vurğuladığı kimi, “Azərbaycan üçün gələcəyin əsas istiqaməti - təmiz enerji və davamlı inkişafdır”. Bu yanaşma İlham Əliyevi yalnız regionun deyil, qlobal səviyyədə “yaşıl gələcək uğrunda mübarizə aparan liderlərdən biri” kimi tanıdır. Beləliklə, Prezident İlham Əliyev bu gün enerji diplomatiyasını ekoloji məsuliyyətlə sintez edən, iqtisadi gücü ilə təbiətə hörməti birləşdirən nadir dövlət başçılarından biridir.

### Dünyada ədalətə və liderliyə ehtiyac var...

Prezident İlham Əliyev XXI əsrin liderlik fəlsəfəsini yeni səviyyəyə qaldıran dövlət başçısıdır. Onun fəaliyyətində güc və ədalət, qüdrət və humanizm, qətiyyət və diplomatiya bir-birini tamamlayır. Azərbaycanın qələbəsi təkcə bir müharibənin sonu deyil, həm də ədalətin və beynəlxalq hüququn qələbəsidir. Bu qələbənin arxasında isə Prezident İlham Əliyev kimi fenomenal liderin uzaqgörən siyasəti, dəmir iradəsi və bəşəri ədalətə inamı dayanır.

Bu gün dünyanın hər yerində sabitliyə, ədalətə və liderliyə ehtiyac olduğu bir vaxtda Prezident İlham Əliyev bütün bəşəriyyət üçün nümunəvi lider obrazıdır - əzəməti ilə heyranedici, ədaləti ilə öyrədici, qərarları ilə tarix yazan lider...

***Pərviz SADAYOĞLU***

# Bir amal, bir məqsəd uğrunda: milli birliyin siyasi fəlsəfəsi...

# Siyasi həmrəylik milli gücün ifadəsi kimi...

## Siyasi partiyalar birgə bəyanat qəbul ediblər

Milli həmrəylik hər bir xalqın varlığının, hər bir dövlətin sabitliyinin və inkişafının əsas sütunlarındandır. Dövlətin gücü tək iqtisadi və ya hərbi göstəricilərlə ölçülmür - milli güc həm də cəmiyyətin siyasi həmrəyliyi ilə indentifikasiya olunur. Xüsusilə milli maraqlara, dövlətin gələcəyinə və təhlükəsizliyinə aid məsələlərdə vahid mövqenin sərgilənməsi, ortaq yanaşma mühüm əhəmiyyət kəsb edir. Milli maraqlarda həmrəylik yalnız ideoloji deyil, həm də mənəvi məsələ kimi dövlətin inkişaf prioritetlərində ön plana çıxır.

Azərbaycan bu mənada nümunəvi bir ölkədir. 2019-cu ildən etibarən ölkədə baş verən siyasi dəyişikliklər, yeni siyasi konfiqurasiyanın formalaşması, siyasi münasibətlər sistemində başlanan dialoq mərhələsi milli həmrəyliyin yeni mərhələsini başlatdı.

Siyasi partiyalar arasında qarşılıqlı anlaşma, fikir mübadiləsinə əsaslanan münasibətlər sistemi tədricən cəmiyyətin bütün sferalarına sirayət etdi. Prezident İlham Əliyevin iradəsi və təşəbbüsü ilə formalaşan bu siyasi dialoq platforması qısa müddətdə siyasi mədəniyyətin yeni modelini yaratdı. Artıq Azərbaycan siyasətində qarşıdurma və qarşılıqlı ittihamlar yerini dövlət maraqları üzərində birləşən əməkdaşlığa verdi-hakimiyyət-müxalifət münasibətləri qarşıdurma deyil, milli məsuliyyət müstəvisinə keçid aldı. Bu isə təkcə daxili sabitliyi deyil, həm də dövlət idarəçiliyinin keyfiyyətini artıran amilə çevrildi.

### Yeni siyasi konfiqurasiya: milli həmrəyliyin real mənzərəsi...

Yeni siyasi münasibətlər sisteminin ən parlaq təzahürü 2020-ci il Vətən müharibəsi dövründə özünü göstərdi. Həmin günlərdə bütün ölkə, cəmiyyət və siyasi spektr vahid məqsəd uğrunda birləşdi - dövlətin, Ordunun və Ali Baş Komandanın ətrafında sıx birləşərək Qarabağın azadlığı uğrunda mübarizəyə səfərbər oldu. Bu, təkcə hərbi qələbə uğrunda birlik deyildi, həm də milli ruhun qələbəsi idi. Ölkədə fəaliyyət göstərən 50-dən çox siyasi partiyanın birgə bəyanat qəbul etməsi, Prezident İlham Əliyevin apardığı siyasəti dəstəklədiklərini açıq şəkildə bəyan etmələri, müasir siyasi tariximizdə analoqu olmayan hadisəyə çevrildi. Qeyd etmək lazımdır ki, hələ döyüşlərin başladığı ilk gündə ölkəmizdə fəaliyyət göstərən 50 siyasi partiya Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanat yaydılar. Siyasi partiyaların rəhbərləri birgə bəyanatda Ermənistanın işğalçı siyasətini şiddətlə qınayıb və sənəddə mülki əhalinin yaşadığı kəndlərin bombalanması faktının insanlığa qarşı edilən cinayət kimi beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməli olduğu vurğulanıb. Bundan başqa, ölkənin siyasi partiyaları beynəlxalq hüququn aliliyinin bərqərar olunmasını, Azərbaycana qarşı tətbiq olunan ikili standartlara son qoyulmasını tələb ediblər. Bəyanatda o da bildirilirdi ki, rəsmi İrəvanın militarist bəyanatları, Ermənistanın siyasi elitasının məsuliyyətsiz bəyanatları Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini mümkünsüz edir. Bununla yanaşı, siyasi partiyaların rəhbərləri dövlət başçısının fikrini dəstəklədiklərini və status-kvonun dəyişməz qalmasının mümkünsüz olduğunu da qeyd etdilər - bildirildi ki, Azərbaycan ədalətli və məsuliyyətli mövqe nümayış etdirir. Siyasi partiya rəhbərlərinin imzaladığı bəyanatda Azərbaycan xalqının və ölkənin siyasi partiyalarının yekdilliklə Prezidentin yanında olduğu xüsusi olaraq vurğulandı.

Beləliklə, 2020-ci ilin sentyabrında imzalanan bu ilk milli birlik bəyanatı milli və siyasi həmrəyliyin parlaq göstəricisinə çevrilidi. Bu bəyanat eyni zamanda ölkədə siyasi dialoqun mövcudluğunun sübutu kimi ön plana çıxdı. Bu, milli həmrəyliyin ən yüksək forması idi - fərqli ideoloji düşüncələr, müxtəlif siyasi platformalar, hətta uzun illər bir-birinə qarşı kəskin mövqe sərgiləyən qüvvələr belə, Vətən naminə bir mövqedə dayandılar. Bütün fərqləri arxada qoyaraq, "Azərbaycan uğrunda bir yumruq" oldular.

### Azərbaycan uğrunda bir yumruq olmaq...

Siyasi qüvvələrin bu mövqeyi həm də xaricdən ölkəmizə yönələn təzyiqlərə verilən ən tutarlı cavab idi. Çünki həmin dövrdə düşmən tərəf informasiya müharibəsi aparır, daxili parçalanma görüntüsü yaratmağa çalışırdı. Lakin Azərbaycan cəmiyyətinin və siyasi qüvvələrinin birliyi bütün bu cəhdləri puç etdi. Müharibə dövründə formalaşan bu həmrəylik modeli sonrakı illərdə də siyasi sistemin inkişafında əsas baza oldu.

### Milli birliyin siyasi fəlsəfəsi: yeni mərhələnin başlanğıcı

Bu gün Azərbaycan artıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Ərazi bütövlüyümüzün bərpası, Qarabağın və Şərqi Zəngəzurun tam azad edilməsi, dövlət suverenliyimizin tam təmin olunması milli birliyin siyasi fəlsəfəsini daha da möhkəmləndirib. Artıq ölkənin bütün siyasi qüvvələri - istər iqtidar, istər müxalifət, istərsə də ictimai-siyasi təşkilatlar bir məqsəd ətrafında birləşiblər: müstəqil, güclü, müasir Azərbaycanı gələcəyə aparmaq. 2020-ci il müharibəsindəki həmrəylik bu gün də davam edir. Yeri gəlmişkən, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar birgə bəyanat yayıblar. Bəyanatda bildirilir ki, 2020-ci il 27 sentyabr tarixində başlayan Azərbaycan xalqının haqq savaşı - Vətən müharibəsi azərbaycanlıların böyüklüyünü, əzmini və qəhrəmanlığını bütün dünyaya göstərdi. Uzun illər düşmən işğalında olan, torpağının üstü də, altı da talan edilən Qarabağ və Şərqi Zəngəzur əraziləri Vətən müharibəsi Zəfəri ilə öz azadlığına qovuşdu. 44 gün ərzində Azərbaycan Ordusunun cəsur döyüşçüləri öz arxalarında Azərbaycan xalqının tükənməz gücünü və birliyini hiss edərək düşməni - Ermənistan ordusunu darmadağın etdi və bununla da Qafqazda uzun illər mövcud olan erməni mifini tarixin zülmətinə göndərdi: "Bütün dünya azərbaycanlıları dərindən dərk edir ki, 44 günlük Vətən müharibəsinin nəticəsində təkcə ərazi bütövlüyümüz bərpa edilməmiş, eyni zamanda, Azərbaycan xalqının qüruru özünə qayıtmış və Azərbaycan dünya dövlətləri sırasında qalib dövlətə çevrilmişdir. Dünya tarixinin ən qarışıq və təhlükələrlə dolu zamanında Azərbaycan xalqının, Azərbaycan Ordusunun və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətçilik tariximizə bəxş etdiyi bu şanlı səhifə daim xatırlanacaq və əbədi yaşayacaqdır".

Bəyanatda dövlətimizin dünya birliyində tutduğu layiqli mövqeyin, Qalib dövlət nüfuzunun qorunması istiqamətində atılan böyük addımların yüksək dəyərləndirildiyi qeyd olunub. Vətənimiz naminə daim siyasi milli birliyi dəstəkləyən partiyalar xalqımızı və dünya azərbaycanlılarını Zəfər Gününün beşinci ildönümü münasibətilə təbrik edib və hər kəsi güclü Azərbaycan naminə sarsılmaz və daha möhkəm milli birliyə səsləyib.

Siyasi partiyaların birgə bəyanatla çıxış etməsi, ölkədə gedən böyük quruculuq proseslərinə dəstək ifadə etməsi göstərir ki, siyasi həmrəylik artıq epizodik yox, daimi siyasi mədəniyyətə çevrilib. Azərbaycanın bu gün yaratdığı siyasi mühitdə milli maraqlar bütün ideoloji fərqləri üstələyir. Qarabağın azadlığı uğrunda səfərbər olan siyasi qüvvələr indi həmin torpaqlarda quruculuq proseslərinə mənəvi dəstək verirlər. Dövlətin iqtisadi, diplomatik və sosial siyasəti də məhz bu həmrəylik üzərində qurulub. Bu, milli həmrəyliyin davamlı siyasi fəlsəfəyə çevrilməsinin sübutudur. Bu isə Azərbaycan demokratiyasının keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərir.

### Siyasi dialoqun dərinləşməsi: dövlət-cəmiyyət münasibətlərinin müasir modeli

Siyasi dialoqun davamlı xarakter alması həm dövlətin, həm də cəmiyyətin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə iş şöbəsinin təşəbbüsü ilə keçirilən müntəzəm görüşlər, dəyirmi masalar, fikir mübadilələri bu prosesin mühüm tərkib hissəsidir. Bu dialoq formatı təkcə siyasi münasibətləri tənzimləmir, həm də dövlət idarəçiliyinə ictimai iştirakçılıq elementlərini gətirir. Siyasi partiyaların, QHT-lərin, ictimai təşkilatların işğaldan azad edilmiş ərazilərə birgə səfərləri milli həmrəyliyin konkret təzahürüdür. Bu səfərlər zamanı müxtəlif partiyaların nümayəndələri dövlətin həyata keçirdiyi bərpa və quruculuq işləri ilə tanış olur, öz təşəbbüslərini, təkliflərini irəli sürürlər.

Beləliklə, siyasi dialoq təkcə sözlə deyil, əmələn milli birliyə xidmət edir. Dövlətin bu prosesdə tutduğu mövqe açıq və demokratikdir - hər bir siyasi qüvvə üçün platforma açıqdır, əsas amal milli maraqlara xidmət etməkdir. Məhz bu səbəbdən, Azərbaycanda siyasi münasibətlərdə qarşılıqlı etimad mühiti formalaşır. Bu, həm də dövlətin idarəçiliyində çeviklik, cəmiyyətdə sabitlik və siyasi sistemdə dinamiklik yaradır. Qısa zamanda əldə olunan bu nəticələr sübut edir ki, siyasi dialoq Azərbaycan modelində davamlı inkişafın mühüm dayağına çevrilib.

### Milli birliyə qarşı dayananlar - dünən də, bu gün də ...

Təəssüf ki, milli həmrəylikdən kənarda qalan qüvvələr də var. 2020-ci ildə 50 partiyanın imzaladığı birlik bəyanatına qoşulmayan bir neçə siyasi təşkilatların bəziləri bu gün də eyni mövqedə qalmaqda israr edir. AXCP-nin və Müsavat Partiyasının timsalında onlar milli maraqları öz dar siyasi maraqlarına qurban verərək, cəmiyyətin birliyinə zərbə vurmaq xəttini seçiblər. Bu qüvvələr Vətən müharibəsində əldə edilən tarixi Qələbəyə sevinməyən, Azərbaycan Ordusunun uğurlarını kölgələməyə çalışan, dövlətin beynəlxalq arenada qazandığı nailiyyətlərə qarşı çıxan marginal qruplar olduqlarını bir daha ortaya qoydular. Bu mövqe ilə, əslində, cəmiyyətin birliyinə yox, xaricdən idarə olunan təbliğatın təsiri altında olduqlarını növbəti dəfə sübut etdilər. Bu "qüvvələr" milli həmrəyliyi sarsıtmaq cəhdi ilə, əslində öz siyasi varlıqlarını qorumağa çalışırlar. Lakin Azərbaycan cəmiyyətinin yetkin siyasi düşüncəsi bu cəhdləri neytrallaşdırır.

Azərbaycan xalqı, siyasi palitrası birliyi, həmrəyliyi və dövlət maraqlarına sədaqəti seçir. Cəmiyyətin böyük əksəriyyəti Prezident İlham Əliyevin ətrafında birləşərək bu siyasi sabitliyin qorunmasına dəstək verir. Milli həmrəyliyə qarşı duran hər bir addım isə xalqın iradəsinə qarşı çıxmaq deməkdir.

### Həmrəylik həm də gələcəyin təminatıdır

Bir sözlə, Azərbaycanın müasir siyasi modeli milli həmrəylik, qarşılıqlı etimad və dialoq üzərində qurulub. Bu, yeni dövrün yeni siyasi fəlsəfəsidir. Dövlət və xalqın birliyi, siyasi partiyaların milli amal uğrunda bir araya gəlməsi ölkəmizin gələcək inkişafının ən möhkəm təminatıdır. Bu gün Azərbaycan dünyaya sübut edib ki, güclü dövlət üçün əsas resurslar arasında xalqın və siyasi kəsimin həmrəyliyi ön sıradadır. Məhz həm də bu birliyin təsiri ilə Azərbaycan müharibədə qalib gəldi, müstəqilliyini möhkəmləndirdi və yeni inkişaf mərhələsinə qədəm qoydu. Siyasi həmrəylik bu gün təkcə keçmişin nəticəsi deyil, həm də gələcəyin təminatıdır. Azərbaycanın bütün siyasi qüvvələri milli maraqlar ətrafında birləşdikcə, bu dövlətin qarşısında heç bir qüvvə dayana bilməz...

*Pərviz SADAYOĞLU*

# 23 partiyanın Zəfər bəyanatı

"2020-ci il 27 sentyabr tarixində başlayan Azərbaycan xalqının haqq savaşı - Vətən müharibəsi azərbaycanlıların böyüklüyünü, əzmini və qəhrəmanlığını bütün dünyaya göstərdi. Uzun illər düşmən işğalında olan, torpağının üstü də, altı da talan edilən Qarabağ və Şərqi Zəngəzur əraziləri Vətən müharibəsi Zəfəri ilə öz azadlığına qovuşdu. 44 gün ərzində Azərbaycan Ordusunun cəsur döyüşçüləri öz arxalarında Azərbaycan xalqının tükənməz gücünü və birliyini hiss edərək düşməni - Ermənistan ordusunu darmadağın etdi və bununla da Qafqazda uzun illər mövcud olan erməni mifini tarixin zülmətinə göndərdi.

Vətən müharibəsində Azərbaycan xalqının və əzəmətli Ordusunun qazandığı Zəfər dövlətçilik tariximizə qızıl hərflərlə həkk olunaraq Azərbaycanın növbəti qələbələrinin açarına çevrildi. Vətən müharibəsi Zəfərindən sonra Azərbaycan dövlətinin humanist, sülhpərvər və tolerant mövqeyi ilə hələ də Qarabağda yaşayan erməni separatçıları və onları qoruduğunu iddia edən silahlı dəstələrin işğaldan azad edilən ərazilərimizdə quruculuq işləri ilə məşğul olan vətəndaşlarımıza qarşı törətdikləri cinayətlər, eləcə də Ermənistanın imzaladığı kapitulyasiya aktında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yönəlik təhdidlərin davam etməsi 2023-cü ilin 19 sentyabr tarixində başlanan birgünlük antiterror əməliyyatlarını labüd etdi. Milli həmrəyliyin təzahürü olan xalq-ordu birliyinin nəticəsində qalibiyyətlə başa çatan antiterror əməliyyatından sonra Azərbaycanda yer almış separatçı qüvvələrin kökü birdəfəlik kəsildi, tarixən azərbaycanlılara qarşı törətdiyi qanlı cinayətlərin hüquqi müstəvidə cəzasından qorxan ermənilər Azərbaycan dövlətinin ərazisini könüllü şəkildə birdəfəlik tərk etdilər.

Azərbaycan ordusunun yüksək humanist keyfiyyətlərlə - bir nəfər də olsun sivil şəxsə toxunulmadan şərəf, namus və ləyaqətlə icra etdiyi bu tarixi missiya Azərbaycan dövlətinə tarixində ilk dəfə tam suverenlik qazandırdı. Azərbaycanın yüz illər ərzində apardığı haqq mübarizəsi, Vətən uğrunda verilən qurbanlar Azərbaycan xalqını tarixinin ən böyük Qələbəsinə qovuşdurdu və müzəffər xalqa çevirdi. Azərbaycan indi öz tarixinin ən güclü, şərəfli və məğrur dövrünü yaşamaqdadır.

Bütün dünya azərbaycanlıları dərindən dərk edir ki, 44 günlük Vətən müharibəsinin nəticəsində təkcə ərazi bütövlüyümüz bərpa edilməmiş, eyni zamanda Azərbaycan xalqının qüruru özünə qayıtmış və Azərbaycan dünya dövlətləri sırasında qalib dövlətə çevrilmişdir. Dünya tarixinin ən qarışıq və təhlükələrlə dolu zamanında Azərbaycan xalqının, Azərbaycan Ordusunun və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dövlətçilik tariximizə bəxş etdiyi bu şanlı səhifə daim xatırlanacaq və əbədi yaşayacaqdır.

Bu gün Azərbaycan beynəlxalq miqyasda söz sahibidir. İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda misli görünməmiş sürətlə həyata keçirilən bərpa-quruculuq işləri əzəli torpaqlarımıza həyat bəxş edir, eləcə də bütün dünyaya Azərbaycanın gücünü nümayiş etdirir. Erməni vandalizminin qurbanı olan tarixi abidələrimiz bərpa olunur, 30 il müddətində daşı-daş üstdə qalmayan şəhərlər yenidən qurulur, Qarabağın hər bir guşəsinə həyat yenidən qayıdır, Şuşa, Xankəndi, Laçın və digər şəhərlər dünyanın nüfuzlu liderlərinin görüş məkanına çevrilir.

Sevindirici haldır ki, Qarabağda Azərbaycan dövlətinin həyata keçirdiyi quruculuq prosesi dost ölkələrin də yüksək diqqətindədir. Xüsusən Türk Dövlətlərinin rəhbərlərinin Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinə dəstəyi gündən-günə daha da inkişaf edən türk birliyinin simvoluna çevrilir. Dünyanın super dövlətlərinin dəstəyi ilə qısa zamanda fəaliyyətə başlayacaq Zəngəzur dəhlizi layihəsi təkcə Azərbaycanın ərazilərini deyil, bütün Türk dünyasını bir-biri ilə bağlayan, Uzaq Şərqi Avropa ilə birləşdirən tarixi İpək Yolunun bir parçasına çevrilir.

Dövlətimizin dünya birliyində tutduğu layiqli mövqeyi, Qalib dövlət nüfuzunun qorunması istiqamətində atılan böyük addımları yüksək dəyərləndirərək Vətənimiz naminə daim siyasi milli birliyi dəstəkləyən partiyalar xalqımızı və dünya azərbaycanlılarını Zəfər Gününün beşinci ildönümü münasibətilə təbrik edir və hər kəsi güclü Azərbaycan naminə sarsılmaz və daha möhkəm milli birliyə səsləyir.

1. Yeni Azərbaycan Partiyası
2. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı
3. "Ana Vətən" Partiyası - Fəzail Ağamalı
4. Ədalət, Hüquq, Demokratiya Partiyası - Qüdrət Həsənquliyev
5. Böyük Quruluş Partiyası - Fazil Mustafa
6. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə
7. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev
8. Milli Cəbhə Partiyası - Razi Nurullayev
9. "Azərbaycan Milli İstiqlal" Partiyası - Arzuxan Əlizadə
10. "Böyük Azərbaycan" Partiyası - Elşad Musayev
11. Haqq Ədalət Partiyası - Əli İnsanov
12. Azərbaycan Ümid Partiyası - İqbal Ağazadə
13. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev
14. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu
15. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev
16. AĞ Partiyası - Tural Abbaslı
17. REAL Partiyası - Natiq Cəfərli
18. Azad Vətən Partiyası - Akif Nağı
19. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev
20. Yeni Zaman Partiyası - Musa Ağayev
21. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu
22. Vəhdət Partiyası - Adəm İsmayılov
23. Ədalət Partiyası - Mütəllim Rəhimov".







# Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!

## Günün mübarək!

Azərbaycan tarixinin, mədəniyyətinin, mənəviyyatının zirvəsində bir ad var - Şuşa! Qarabağın ürəyi, Azərbaycanın qürur tacı, əsrlərin sınağından alnıaçıq çıxan müqəddəs bir diyar. Hər daşında bir dastan, hər küçəsində bir xatirə, hər nəfəsində azadlıq həsrəti var bu şəhərin...

Şuşa təkcə coğrafi məkan deyil, o, bir ruh, bir iradə, bir xalq simvoludur. 1752-ci ildə Pənahəli xanın qurduğu bu qala-şəhər sonralar Azərbaycan mədəniyyətinin beşiyinə çevrildi. Burada doğulan söz ustadları, musiqi sənətkarları, qəhrəman oğul və qızlarımız xalqımızın yaddaşına silinməz izlər buraxdılar. Xurşidbanu Natəvanın zərif şeirləri, Üzeyir bəy Hacıbəylinin notları, Bülbülün səsi, Xan Şuşinskinin avazı bu torpağın ruhunu tərənnüm etdi.

Ancaq zamanın bir dönəmində Şuşa qara günlər yaşadı. 1992-ci ilin mayında düşmən tapdağına düşən bu müqəddəs torpaq millətin ürəyində sağalmaz bir yara açdı. Şuşanın itkisi təkcə bir şəhərin itirilməsi deyildi, sanki Azərbaycanın qəlbindən bir parça qoparılmışdı. O illər boyu hər bir azərbaycanlının içində bir nida vardı: “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!”

## Qarabağın ürəyi mühasirədə...

1992-ci ilin yazında Şuşa artıq bir neçə ay idi ki, faktiki mühasirə şəraitində yaşayırdı. Şəhərə gedən yeganə yol olan Laçın istiqaməti təhlükəli idi, təchizat çətinləşmişdi. Erməni silahlı birləşmələri həm Xankəndi, həm də Laçın istiqamətlərindən şəhəri daimi atəş altında saxlayırdı. Hər gün artilleriya mərmiləri Şuşanın üzərinə yağır, dinc əhali ağır itkilər verirdi.

Mayın 8-dən gecə düşmən qüvvələri bir neçə istiqamətdən hücuma keçdi. Qısa müddətdə şəhərin ətrafındakı müdafiə mövqeləri güclü artilleriya və minaatan atəşinə məruz qaldı. Azərbaycan müdafiəçiləri - yerli özünümüdafiə dəstələri və könüllülər qəhrəmancasına döyüşsələr də, düşmən canlı qüvvə və texnika baxımından böyük üstünlüyə malik idi. Şəhərə yardım göstərmək mümkün olmadı, rabitə kəsilmiş, təchizat yolları bağlanmışdı.

Səhər tezdən artıq şəhərin bir hissəsində küçə döyüşləri başlamışdı. Şuşa müdafiəçiləri son güllələrinə qədər döyüşdülər, lakin sayca çox olan düşmən qüvvələri şəhəri ələ keçirdi...

İşğaldan sonra şəhərin 22 min əhalisi məcburi köçkün kimi Azərbaycanın müxtəlif bölgələrində yerləşib. Şuşanın işğalı zamanı 195 nəfər həlak olub, 165 nəfər yaralanıb. Bundan başqa, 55 nəfər əsir düşüb və girov götürülüb.

## 28 illik həsrətə son...

1992-ci ildə işğal altına düşən Şuşa uzun illər boyu Azərbaycan xalqının ürəyində ağrı kimi yaşadı. Hər bir azərbaycanlı üçün Şuşa itirilmiş bir şəhər deyil, qaytarılmalı olan müqəddəs bir əmanət idi. Bu ümid 2020-ci ilin payızında, Vətən müharibəsi günlərində gerçəkliyə çevrildi. Nəhayət, 8 noyabrda həmin müqəddəs an yetişdi. Azərbaycan bayrağı Şuşa qalasının üzərində dalğalandı. Bu an təkcə Ordumuzun deyil, bütün xalqımızın zəfəri idi.

Şuşanın azad olunması ilə Azərbaycan dövləti öz suverenliyini bərpa etdi, milli birliyini möhkəmləndirdi. Bu qələbə xalqın gücünü, ordunun rəşadətini, rəhbərliyin qətiyyətini bütün dünyaya göstərdi.

## Şuşa döyüşləri: Zəfərə aparan zirvə!

2020-ci ilin payızında Azərbaycan torpaqları 30 ilə yaxın davam edən işğaldan azad olunmaq üzrə idi. Vətən müharibəsinin ən həlledici mərhələsi yaxınlaşırdı. Qarabağın tacı, mədəniyyət beşiyi, strateji yüksəklik olan Şuşa uğrunda döyüşlər başlanırdı.

Bu döyüşlər təkcə hərbi əməliyyat deyildi, bu, bir xalqın azadlıq yürüşü, qürurunun bərpası, tarixi ədalətin təntənəsi idi. Şuşa döyüşləri hərb tariximizdə xüsusi yer tutur. Tankların, ağır texnikanın belə keçə bilmədiyi qayalıqlar arasından əsgərlərimiz əllərində silah, ürəklərində Vətən sevgisi ilə irəliləyirdilər. Hər bir döyüşçü üçün məqsəd bir idi - Şuşanı azad etmək, bayrağımızı qala divarlarına sancmaq!

## Prezidentin Şuşa müjdəsi

“Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”. Prezident İlham Əliyevin 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı səsləndirdiyi bu fikirlər yaddaşlardan heç zaman silinməyəcək ifadələrdir. Xalq bu müraciəti, bu anları səbirsizliklə gözləyirdi. Bu müjdənin verilməsi Azərbaycanın tarixinə açılan yeni səhifələrdən oldu.

“İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”, - deyə Ali Baş Komandan bildirib.

## Quruculuğun Şuşa zirvəsi

Bu gün Şuşada genişmiqyaslı tikinti və bərpa layihələri həyata keçirilir. Buraya tarixi abidələrin yenidən qurulması, yeni sosial obyektlərin tikilməsi, yol və nəqliyyat infrastrukturunun müasirləşdirilməsi daxildir. Prezident İlham Əliyevin birbaşa nəzarəti altında aparılan bu işlər Şuşanı beynəlxalq turizm və mədəniyyət mərkəzinə çevirmək məqsədi daşıyır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın hər dəfə Şuşaya səfəri, şəhərdə aparılan genişmiqyaslı bərpa və inkişaf işləri Azərbaycanın Qarabağdakı qələbəsini möhkəmləndirmək yolunda atılan mühüm addımlardır. Şuşa həm tarixi irsini qoruyur, həm də müasir şəhər kimi inkişaf edir. Bu səfər Şuşanın yenidən Azərbaycanın mədəniyyət paytaxtı statusunu gücləndirməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu səfər və həyata keçirilən layihələr Azərbaycanın Şuşaya və Qarabağa verdiyi böyük önəmin göstəricisidir. Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən bu tədbirlər Şuşanın təkcə Azərbaycanın deyil, bütün regionun ən mühüm mədəni və turizm mərkəzlərindən birinə çevrilməsinə şərait yaradır. Şuşa yenidən dirçəlir. Küçələrində yenidən musiqi səslənir, məscidlərindən azan, məclislərindən muğam səsi ucalır. Hər bərpa olunan bina, hər açılan mədəniyyət mərkəzi xalqımızın yenilməzliyinin sübutudur.

Bu gün Şuşa şəhəri günüdür. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, hər il noyabrın 8-də Şuşa Şəhəri Günü qeyd olunur.

Şuşa bu gün yenidən dirçəlir - küçələr abadlaşdırılır, mədəni tədbirlər bərpa olunur, “Xarıbülbül” festivalı yenidən səslənir. Bu, təkcə şəhərin deyil, həm də xalqımızın ruhunun dirçəlişidir. Azərbaycan xalqı Şuşanı heç vaxt unutmadı. Onun azadlığı uğrunda illərlə dua edildi, ümidlər sönmədi.

5 il öncə 28 illik həsrətə son qoyuldu, 8 mayın acısı 8 noyabrın qələbə sevinci ilə əvəz olundu!...

***Yeganə BAYRAMOVA***

# Qürur və məğrurluğun təcəssümü - Zəfər tariximiz!

8 Noyabr - Zəfər Günü Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri, siyasi rəhbərliyin, xalq və ordu birliyinin, eləcə də vətənpərvərlik ruhunun ifadəsidir. Tarixi dönəmə nəzər salsaq görərik ki, son 200 il ərzində parçalanan, ərazilərini itirən Azərbaycan ilk dəfə olaraq ərazi bütövlüyünü, suverenliyini təmin etmiş oldu. Beş il bundan əvvəl Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciəti tariximizin yeni salnaməsini yaratmış oldu. Ədalətin qələbəsi tariximizə Zəfər günü kimi əbədi həkk olundu. Azərbaycanın bu Qələbəsi xalqının haqqını və qürurunu geri qaytardı. Ermənistanın qanunsuz hərbi işğalı davam etdirməsi, danışıqlar prosesini pozması və “Qarabağ Ermənistandır” kimi qəbulolunmaz ritorikaya əl atmaları münaqişənin artıq yaranmış şəraitə uyğun olaraq, sülh və danışıqlar yolu ilə həllinə son qoymuş oldu. Münaqişənin nizamlanması üçün 1992-ci ildə təsis olunmuş ATƏT-in Minsk qrupu fəaliyyəti dövründə problemin həllinə yox, dondurulmasına səy göstərmiş və beləliklə də, aparılan danışıqlar heç bir nəticə verməmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Ermənistanın artan hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatları ilə başlayan Vətən müharibəsi Azərbaycan torpaqlarının azad edilməsində yeni mərhələnin başlanğıcı oldu. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, “Əgər biz öz torpaqlarımızı hərbi yolla azad etməsəydik, hələ bundan sonra 100 il də icra edilməyəcəkdi”.

Azərbaycan Prezidentinin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncama əsasən, noyabrın 8-i Azərbaycanda Zəfər Günüdür. Bu tarixi gün siyasi-milli iradənin, xalq-ordu birliyinin, həmrəyliyin təcəssümüdür. Bölgədə yeni reallıqlar və sülh üçün tarixi imkanlar yaradan Zəfərimiz otuz ilə yaxın olan erməni işğalına son qoydu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu şəhər, qəsəbə və kəndləri, eləcə də mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Şuşa Zəfəri işğal altında olan Kəlbəcər, Ağdam və Laçın rayonlarının 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı ilə ölkəmizə qaytarılmasını təmin etdi. “Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik”, - deyə Azərbaycan Prezidenti bildirmişdir. Dövlət başçımızın ölkəyə rəhbərliyi dövründən - 2003-cü ildən başlayaraq işğal altında olan ərazilərimizin azad olunması istiqamətində həyata keçirdiyi tədbirlər 44 günlük Vətən müharibəsində öz sözünü demiş oldu. Azərbaycan Prezidentinin vurğuladığı kimi, “Mən işğal dövründə deyirdim, bir neçə dəfə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq”. 2003-2020-ci illər ərizində Azərbaycanın iqtisadi qüdrətinin artırılması, beynəlxalq nüfuzunun güclənməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi məhz bu Qələbədə müstəsna rol oynamış oldu. Xalq-iqtidar birliyi gücləndi və bir yumruq olaraq birləşməyi bacardı. “Dəmir yumruq” onların belini qırdı. “Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir”, - deyə Prezident bildirib.

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın ən mühüm şərtlərindən biri erməni silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazilərindən çıxarılması idi. 2021-ci ildə Laçın sərhəd-buraxılış məntəqəsi qurulanadək Ermənistanda istehsal olunmuş minalar Azərbaycanın Qarabağ bölgəsinə gətirilərək, kütləvi şəkildə müxtəlif yerlərdə bastırılmışdır. Müharibədən sonrakı dövrdə Azərbaycan tərəfi beynəlxalq platformalarda ermənilərin ərazilərimizdə mina terroruna və digər təxribatlarına lazımi hüquqi qiymət verilməsini dəfələrlə tələb etsə də, Ermənistana lazımi təzyiq göstərilmədi. Vətən müharibəsindən sonra ən qanlı toqquşma isə 2022-ci ilin 12-14 sentyabr tarixlərində baş vermişdir. Bu döyüşlərin səbəbi isə Ermənistan silahlı qüvvələri bölmələrinin 2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecədən başlayaraq Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətməsi idi.




Öz çirkin niyyətlərindən əl çəkməyərək 2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni şəkildə Şuşa istiqamətində təxribatlar törətmişdilər.

44 günlük Vətən müharibəsində “Dəmir Yumruğ”un gücünü görmüş ermənilər Azərbaycan ordusunun gücünə, Ali Baş Komandanın siyasi gücünə, iradəsinə yaxşı bələddirlər. Azərbaycan tərəfi qanunsuz erməni qüvvələrinin mövcudluğuna son qoymaq və bütün ərazilərində tam suverenliyi bərpa etmək məqsədilə, Qarabağ bölgəsində iki il bundan əvvəl 24 saat ərzində antiterror tədbirləri həyata keçirdi. Azərbaycan Ordusunun Qarabağda başlatdığı 2023-cü il 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan Ordusu Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. “Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi”, - deyə Prezident İlham Əliyev bildirib.

Bu tədbirlər nəticəsində Xankəndi, Xocalı, Ağdərə və digər strateji şəhərlər üzərində tam nəzarət təmin edildi, üçrəngli dövlət bayrağımız azad edilmiş bütün ərazilərimizdə dalğalandırıldı.

Qeyri-qanuni erməni ordusu Qarabağ ərazisindən tərk-silah edildi və Azərbaycan öz dövlət suverenliyini tam və qəti şəkildə bərpa etdi.

Artıq ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərqərar olunmasından iki il ötür. Beləliklə, ərazi bütövlüyümüz və suverenliyimizin təmini ilə nəticələnən 44 günlük Vətən müharibəsi və Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirləri dayanıqlı sülh quruculuğu üçün tarixi şəraitin yaranması ilə nəticələndi. XXI əsrin müharibəsini aparan Azərbaycan 44 günlük müharibəsində uğurlu əməliyyat keçirərək 30 ilə yaxın zamanda işğal altında qalmış torpaqlarını erməni təcavüzkarlarından azad etdi və bu gün paytaxtımızda Hərbi Qənimətlər Parkında ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar nümayiş olunur.

Bugünkü günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasının reallaşdırılmasıdır. “Dəmir Yumruğu”n yaratdığı yeni reallıqlarla hər kəs hesablaşır. Azərbaycanın yaratdığı yeni reallıqlar regional sülh, sabitlik, təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət region dövlətlərlə yanaşı, Avrasiya məkanında sülh və inkişafa yol açır. Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisədir. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Böyük quruculuq işləri nəticəsində bu ərazilərin əksəriyyətində yeni həyat başlayıb. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq işləri aparılır, minlərlə keçmiş məcburi köçkün öz doğma yurdlarına qayıdıb və əzəli yurd yerlərində həyat öz axarına düşüb, canlanır. Qələbə nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir. Uğurlu inkişaf dövrünü yaşayan və tarixi qələbələrə imza atan Azərbaycanda 2025-ci il Prezident İlham Əliyevin Sərəncamı ilə “Konstitusiya və Suverenlik İli” elan olunub. Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edildi. Əlbəttə ki, tariximizin müxtəlif dönəmlərində müstəqil və suveren dövlətə sahib olmaq Azərbaycan xalqının ən böyük arzusu olmuşdur.



***Azər SÜLEYMANOV,***
***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri,***
***Tarixi üzrə Fəlsəfə doktoru***

# 44 günün dastanı...



44 gün... Bu, bəlkə də tarix boyu bir xalqın həm qürurunu, həm də dərdini eyni anda yaşadığı, yaddaşlardan silinməyəcək bir müddətdir. 2020-ci il sentyabrın 27-də başlanan və Azərbaycan Silahlı Qüvvələrinin şanlı qələbəsi ilə sona çatan 44 günlük müharibə, sadəcə ərazi uğrunda deyil, həm də ədalət uğrunda aparılan mübarizə idi.

Müharibənin hər günü bir qəhrəmanlıq dastanı idi. Dağlarda, düzənliklərdə, şəhərlərdə və kəndlərdə Azərbaycan əsgərləri döyüşdü, əzmkarlıq göstərdi və bir daha sübut etdi ki, haqqın, torpağın və vətənin qorunması hər şeydən üstün gəlir. Qələbə sadəcə hərbi uğur deyildi, həm də milli qürur, dirəniş və ədalət uğrunda canını fəda edənlərin tarixə yazılmış adıdır.

Ermənistanın müharibə zamanı törətdiyi cinayətlər isə hər bir vicdan sahibi üçün sarsıdıcıdır. Məqsədli şəkildə mülki əhaliyə qarşı hücumlar, tarixi və dini abidələrin dağıdılması, kəndlərin yerlə-yeksan edilməsi - bütün bunlar müharibə taktikası deyildi, bunlar insanlıq əleyhinə əməllər idi. Hər bir raket, hər bir mina, hər bir dağıdılmış ev bu gün də göz önündə duran, unudulması mümkün olmayan dəhşətli faktlardır.

## Haqq uğrunda mübarizə heç vaxt bitmir!

Mövzunu “Yeni Azərbaycan”a şərh edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, millət vəkili Elman Məmmədovun sözlərinə görə, tarix sübut etdi ki, haqqın və birliyin gücü hər şeydən üstündür: “Azərbaycan xalqı hər zaman olduğu kimi, 44 günlük müharibədə də birləşdi, ordusu ilə həmrəylik göstərdi və qələbə qazandı. Bu qələbə həm də dünyaya bir mesaj idi: ədalət gec də olsa, qalib gəlir, insanlıq əleyhinə cinayətlər heç vaxt cəzadan kənarda qalmır!

Bu gün şanlı qələbəni qeyd edərkən bir daha xatırlatmalıyıq ki, haqq uğrunda mübarizə heç vaxt bitmir, vətən sevgisi isə hər dövrdə ölçülməzdir. Azərbaycan xalqının 44 gündə yazdığı dastan yalnız hərbi qələbə deyil, həm də mənəvi zəfərin, inadın və insanlıq uğrunda aparılan əbədi mübarizənin rəmzidir”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır**

## Ümumbəşəri prinsiplərə zidd...

Deputat qeyd edib ki, İkinci Qarabağ müharibəsindəki qələbə, yalnız hərbi müstəvidə deyil, həm də Azərbaycanın müstəqilliyinin və suverenliyinin təmin edilməsi üçün əhəmiyyətli bir addım oldu: “Azərbaycanın ərazi bütövlüyünü pozan Ermənistanın 30 illik işğalı nəticəsində yaranan gərginlik və təhdidlər, 44 günlük müharibə ilə sona çatdı.

Müharibə müddətində Ermənistanın həyata keçirdiyi bir çox qanunsuz hərəkət, beynəlxalq hüquq və insanlıq əleyhinə cinayətlər təşkil edib. Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu cinayətlər, müharibə qanunlarına və ümumbəşəri prinsiplərə zidd olaraq, Azərbaycanın sülhə və insanlığa qarşı cinayətlərini həyata keçirib. Belə ki, müharibə zamanı Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı hücumlarının dəfələrlə şahidi olmuşuq. Yalnız hərbi hədəflərin deyil, həm də mülki obyektlərin, evlərin, məktəblərin, xəstəxanaların bombardman edilməsi, bir çox sivil insanın ölümünə və yaralanmasına səbəb olub”.

## Qadağan olunmuş silahlardan istifadə

E.Məmmədovun sözlərinə görə, Ermənistanın döyüş zamanı qadağan olunmuş silahları, o cümlədən ballistik raketləri və fosfor bombalarını istifadə etməsi, beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır: “Bu silahların istifadəsi yalnız fiziki zərər verməklə qalmayıb, həm də müharibə sonrası ətraf mühitə və insanların sağlamlığına uzunmüddətli zərər vurub. Müharibə zamanı Azərbaycan Ordusunun əsgərləri və mülki vətəndaşlarının cəsədləri təhqir olunub, qeyri-insani şəkildə rəftar edilib. Bu, müharibə qanunlarının pozulmasının ən ciddi nümunələrindən biridir və Ermənistanın cinayətkar siyasətini göstərir.

Ermənistanın hərbi əməliyyatları yalnız fiziki zərər verməklə kifayətlənməyib, eyni zamanda, psixoloji təzyiqlər yaradıb. Dinc sakinlər arasında qorxu və təlaş yaratmaq məqsədilə, mülki şəxslərə qarşı hədə-qorxu mesajları və təcavüzkar davranışlar da tətbiq edilib”.

## Tam şəkildə araşdırılma vacibdir!

Deputat qeyd edib ki, Ermənistanın bu cinayətləri, bir çox beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə pislənib, lakin hələ də bəzi ölkələr bu məsələyə qeyri-kafi yanaşıblar: “Bu da Azərbaycanın beynəlxalq müstəvidə daha çox mübarizə aparmasına səbəb olub. Bununla yanaşı, Azərbaycan beynəlxalq tribunallar qarşısında Ermənistanın məsuliyyətə cəlb olunmasını tələb edib.

2020-ci ilin 44 günlük müharibəsi, Azərbaycan üçün tarixi bir zəfər olmaqla yanaşı, Ermənistanın törətdiyi cinayətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından da önəmli bir mərhələdir. Bu müharibə, həmçinin beynəlxalq hüququn, insanlıq və ədalətin üstünlüyünü təsdiqləyib. Hələ də bu cinayətlərin tam şəkildə araşdırılması və Ermənistanın cavabdeh tutulması üçün beynəlxalq səviyyədə daha çox tədbir görülməsi vacibdir. Müharibənin sonunda əldə olunan qələbə, həmçinin Azərbaycanın gələcək inkişafı və ərazi bütövlüyünün qorunması üçün mühüm bir zəmin yaradıb”.

***Yeganə***

# Zəngəzur dəhlizində sona doğru

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən nəhəng infrastruktur quruculuğunda miqyasına və maliyyə tutumuna görə, mühüm yer tutan yol-nəqliyyat layihələrinin inşası sürətlə davam etdirilməkdədir. Ötən 5 ildə yol infrastrukturunun bərpası məqsədilə uzunluğu 3382,6 km təşkil edən 44 avtomobil yolunun 1076,1 km respublika əhəmiyyətli, 2306 km yerli əhəmiyyətli layihələndirilməsi və tikintisi işləri davam etdirilib. Həmin layihələrdən ümumi uzunluğu 315,9 km təşkil edən 7 avtomobil yolunun tam, 1 layihənin tikintisi qismən (39.7 km-lik Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 24.2 km-lik hissəsi) yekunlaşdırılıb. Onların sırasında 101 km olan “Zəfər Yolu”, 28,5 km uzunluğunda Tərtər-Suqovuşan-Talış avtomobil yolu, 22 km-lik Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu, 44,5 km-lik Bərdə-Ağdam avtomobil yolu, 61,4 km-lik Hacıqabul-Bəhramtəpə-Mincivan-Ermənistan dövlət sərhədi avtomobil yolu kimi nəhəng layihələri qeyd etmək olar.

**Layihə üzrə avtomobil və dəmir yolunun çəkilişi növbəti ildə tamamlanacaq**

## Avtomobil yolları tamamlanmaqdadır

Tikintisi 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulan 123,6 km uzunluğunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu,112 km-lik Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd-İranla dövlət sərhədi yolu, habelə 81,7 km-lik Əhmədbəyli-Füzuli-Şuşa, 70,4 km-lik Xudafərin-Qubadlı-Laçın, 81,8 km-lik Toğana-Kəlbəcər-İstisu yollarının inşası qrafik üzrə aparılmaqdadır. Habelə, 45 tunel, 447 körpünün tikintisi işləri davam etdirilir.

Zəngəzur Dəhlizinin ən strateji nöqtəsi sayılan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun inşasının layihə detalları üzrə bütün əhəmiyyətli hissələri demək olar ki, başa çatmaqdadır. İndiyə qədər yol üzərində 8 yol qovşağı, 44 altkeçid, 5 üstkeçid və 314 müxtəlif diametrli mühəndis qurğusu tikilib. Digər infrastruktur hissələrinin inşasının gözlənildiyindən də tez yekunlaşması istisna olunmur. Bu yol ən müasir texnologiyalar üzrə inşa edilməklə, sürət və təhlükəsizlik baxımından bütün parametrlər nəzərə alınmaqdadır. Belə ki, eni 14-21 metrlik 1B texniki dərəcəsinə malik bu yolun torpaq yatağının eni 21,5-29,5 m, hərəkət zolaqlarının sayı isə 4-6 arasında təyin edilib. Bu, nəqliyyatın rahat və təhlükəsiz axınına zəmin yaradır. Bir sözlə, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun inşası, Azərbaycanın infrastruktur sahəsində atdığı mühüm addımlardan biridir.

## Horadiz-Ağbənd dəmir yolu xətti də sürətlə inşa etdirilir

Dəhlizin dəmir yolu seqmentində də işlər sona doğru irəliləyir. Üç mərhələ üzrə icra edilən bu layihənin birinci mərhələsi (Horadiz-Yuxarı Mərcanlı-Şükürbəyli-Soltanlı) tamamlanıb və dəmir yolu vasitəsilə Araz İqtisadi Sənaye Parkına yük daşınmasının həyata keçirilməsi təmin edilməkdədir. Soltanlı-Qumlaq-Həkəri-Mincivan stansiyalarını birləşdirən ikinci mərhələ üzrə işlərin də böyük bir hissəsi yekunlaşıb. Bu istiqamət üzrə 771 metr uzunluğunda, 23 aşırımlı ən uzun dəmir yolu körpüsü tikilib. Tunellər və qoruyucu qalereyaları nəzrdə tutan üçüncü mərhələdə isə işlərin təxminən 70 faizi tamamlanıb. Ümumilikdə, Horadiz-Ağbənd dəmir yolu xəttinin 70 faizə yaxını yekunlaşıb. Yeni Avstriya üsulu ilə yerinə yetirilən işlər tunellərin görkəm və relyef baxımından strateji imkanlarını artırır, tunel boyunca ən müasir texniki təchizatların yaradılması gələcəkdə dəmir yolu xəttinin elektrikləşdirilməsində də mühüm əhəmiyyət kəsb edir. Horadiz-Ağbənd dəmir yolu xəttinin 79-cu km-də yerləşən strateji keçidlərdən biri olan 771 metr uzunluğundakı 23 aşırımlı körpünün tikintisi dünyadakı ən müasir tikinti texnologiyaları ilə davam etdirilir və işlərin böyük bir hissəsi başa çatıb.

Həmin yol-nəqliyyat layihələrinin böyük bir qismi strateji əhəmiyyət daşımaqla regionun çoxşaxəli kommunikasiya zəncirini formalaşdırır, Orta - Zəngəzur Dəhlizinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.



## Mincivan dəmir yolunun tikintisi irəliləyir

Zəngəzur dəhlizinin bir hissəsi kimi xüsusi əhəmiyyət daşıyan Mincivanda da işlək sürətlə davam etdirilir və zəruri infrastrukturlar, logistika təminatlarının gələn ildə tamamlanması nəzərdə tutulur. Araz çayının sahilində - respublika əhəmiyyətli Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yolu və Horadiz-Ağbənd dəmir yolu xətti üzərində yerləşən Mincivan böyük bir dəmir yolu şəbəkəsi ailəsinə qoşulmaqla region ölkələri, Türk dövlətləri üçün xüsusi əhəmiyyət daşıyacaq.

Zəngəzur dəhlizinin tikintisi yalnız infrastruktur layihəsi olmaqla kifayətlənmir, həm də regional inteqrasiyanın mühüm bir hissəsidir. İstər Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, istərsə də Horadiz - Ağbənd dəmiryol xətti Avrasiya nəqliyyat bağlantısının mühüm komponenti olacaq Zəngəzur dəhlizinin bir hissəsi kimi həm Naxçıvanla birbaşa əlaqəni təmin edəcək, Türkiyə Avropaya yeni nəqliyyat marşrutunun işə düşməsini gerçəkləşdirəcək. Layihələrin tam başa çatmasından sonra Orta Dəhliz vasitəsilə illik 15 milyon ton əlavə yük daşınması mümkün olacaq. Azərbaycanın beynəlxalq nəqliyyat xəritəsindəki mövqeyi daha da güclənəcək.

## “Tramp Marşrutu” rifah körpüsünə çeviriləcək

Çinin müəllifi olduğu “Bir kəmər, bir yol” təşəbbüsünün ən strateji qovşağı - Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) quruculuğu istiqamətində son bir ildə beynəlxalq təşəbbüslər əhəmiyyətli dərəcədə artıb. Ötən il Şərq-Qərb marşrutunun müəllifi olan Çinlə Azərbaycan arasında imzalanmış strateji müttəfiqlik sazişinin ən mühüm hədəflərindən biri Orta Dəhlizdə nəqliyyat-logistika qovşağının coğrafiyasını genişləndirmək, dəhliz üzərində yerləşən bütün istiqamətlərdə infrastrukturu yenidən qurmaq və modernləşdirməkdir. Hazırda azad ərazilərdə icra olunan yol-nəqliyyat layihələri həm də bu müttəfiqliyin tələblərindən irəli gələn baxışlara əsaslanır.

Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir, Şimal-Cənub nəqliyyat qovşağını da parlalel şəkildə bu qlobal kommunikasiyalara inteqrasiya edir. Bu reallıqlar Cənubi Qafqazda nəqliyyat xəritəsinin dəyişməsi fonunda dünyanın iqtisadi-siyasi güc mərkəzlərinin bölgəyə marağını daha da artırır. Beynəlxalq nəqliyyat-logistika və ticarət icması Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılmasına dəstəklərini artırır.

Azərbaycanın əhəmiyyətli geoiqtisadi və coğrafi mövqeyi TransXəzər-Qərb nəqliyyat habını da formalaşdırır və bu logiostika quruculuğu Vaşinqton tərəfindən yüksək dəyərləndirilir. Orta Dəhlizin növbəti həlqəsinə çevrilməkdə olan Zəngəzur qovşağına Amerikanın xüsusi marağı və “Tramp Marşrutu”nun (TRIPP) ərsəyə gəlməsi də bu strateji baxışa söykənir. Bu kimi təşəbbüslərin artması, o cümlədən ABŞ-ın Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri ilə görüşün keçirilməsi Orta Dəhliz və müasir kommunikasiya quruculuğunda Vaşinqton-Bakı təşəbbüskarlığının əzmkar nümunəsi kimi dəyərləndirilə bilər.

Azərbaycan Zəngəzuru inşa etməklə həm də Ermənistanı bölgənin iqtisadi rifah zəncirinə qoşmuş olur, üzləşdiyi kommunikasiya buxovundan azad edir. Artıq İrəvan hökuməti də bu gerçəkliyi qəbul edərək Azərbaycanın dayanmadan irəlilətdiyi logistika quruculuğunu dəstəkləməyə başlayıb.

Beləliklə, Azərbaycanın yeni nəqliyyat strategiyası və balanslaşdırılmış tranzit siyasəti regionda geniş logistika, sosial rifah və geniş həmrəylik, iqtisadi əməkdaşlıq formatını formalaşdırmaqdadır.

***E.CƏFƏRLİ***

# C5+1 formatı aktivləşir

## Azərbaycanın ABŞ - Mərkəzi Asiya dialoqunun genişlənməsində rolu yüksək qiymətləndirilir

Bu günlərdə Vaşinqtonda Xəzər hövzəsi region üçün böyük önəm daşıyan mühüm görüş baş tutub. Söhbət Ağ Evdə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampla Orta Asiyanın beş ölkəsinin - Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın və Tacikistanın liderləri arasında C5+1 formatı çərçivəsində baş tutan yüksəksəviyyəli görüşdən gedir. Sammitdə regional əməkdaşlığın perspektivləri ilə bağlı vacib müzakirələr aparılıb, o cümlədən də Zəngəzur Dəhlizinin (TRIPP marşrutunun) müstəsna önəmi vurğulanıb və bir sıra razılaşmalar əldə olunub.

### 10 il bundan əvvəl əsası qoyulan C5+1 formatı



ABŞ-la Mərkəzi Asiya dövlətlərinin çoxtərəfli əməkdaşlığını əhatə edən C5+1 formatının əsası 10 il bundan əvvəl qoyulub. Bu platformanın ilk iclası 2015-ci il noyabrın 1-də Özbəkistanın Səmərqənd şəhərində keçirib. ABŞ və beş Orta Asiya ölkəsinin yüksək vəzifəli diplomatları görüşərək tərəfdaşlıq və əməkdaşlıq haqqında birgə bəyannamə qəbul ediblər. Ağ Evdə C5+1 formatı beş Mərkəzi Asiya ölkəsinin hökumətlərinin və ABŞ hökumətinin əməkdaşlıq formulu və yaxud regional dialoq platforması kimi dəyərləndirilir. Yeni platforma təşəkkül taparkən "müstəqil, çiçəklənən və qorunan Mərkəzi Asiyaya nail olmaq üçün ABŞ-la bəhs olunan dövlətlər arasında fəaliyyətin koordinasiya edilməsi" əsas məqsəd kimi götürülmüşdü.

Hər nə qədər iqtisadi, hökumətlərin fəaliyyətlərinin əlaqələndirilməsi yönümlü platforma olduğu bildirilsə də, burada geosiyasi məqsədlər də yox deyil. Yeni formatın yaradılması təşəbbüsündən çıxış edərkən Ağ Ev eyni zamanda keçmiş ittifaqdan qopan regionda özünün maraqlarını təmin etməyi istəyirdi. Lakin ötən 10 ildə C5+1 formatının fəaliyyətində ciddi bir intensivlik müşahidə olunmayıb. Bunun da əsas səbəbi kimi yenə də geosiyasi amillər göstərilir. Məsələ burasındadır ki, geniş ərazilərə, zəngin enerji resurslarına və mineral ehtiyatlara , nəqliyyat bağlantıları üçün əlverişli coğrafi yerləşməyə malik olan Mərkəzi Asiya regionu həm də digər böyük güclərin - qonşu Rusiyanın və Çinin də maraq dairəsindədir. Məsafə yaxınlığı, qonşuluq amili, tarixən formalaşan əməkdaşlıq ənənələri bu ölkələrin regionda möhkəmlənmələri üçün daha böyük üstünlüklər deməkdir. Yeri gəlmişkən, Çin burada investisiya qoyuluşunu əhəmiyyətli dərəcədə artırıb. Bu bölgədə Rusiyanın fəallığı da yüksək səviyyədədir. Bu və digər amillər, eləcə də Vaşinqton, Pekin və Moskva arasında siyasi ambisiyaların, açıq və gizli nüfuz savaşının olması ABŞ-ın Mərkəzi Asiyada mövcudluğunu genişləndirməyi hədəfləyən C5+1 formatının təxminən 10 il ərzində bir növ passiv qalmasını şərtləndirib.

C5+1 formatı çərçivəsində ikinci yüksəksəviyyəli görüşün keçirilməsi təşəbbüsü Ağ Evdən gəlib. Tramp administrasiyası ABŞ-nin xarici siyasətinə yeni yanaşmalar ortaya qoyur. Burada dünyanın müxtəlif regionlarında ABŞ-ın mövqeyinin gücləndirilməsi xətti xüsusi yer tutur.Yeni administrasiya yaranmış geosiyasi vəziyyəti ABŞ-ın ənənəvi təsir dairəsindən kənarda olan Mərkəzi Asiyada möhkəmlənməsindən ötrü əlverişli fürsət kimi dəyərləndirir. Ağ Ev bununla özünün iqtisadi və siyasi maraqlarını təmin etmək istəyir. "Biz tərəfdaşlığı möhkəmləndirir, təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirir və iqtisadi əlaqələri genişləndiririk", - deyə Tramp liderlərlərin görüşündə bildirib. O, xüsusilə "strateji əhəmiyyətli minerallərın" vacibliyini vurğulayıb.

Eyni zamanda, indiki reallıqlar şəraitində qlobal güc mərkəzi olan ABŞ-la əlaqələri möhkəmlətmək Mərkəzi Asiya dövlətlərinin də maraqlarına uyğundur. Sirr deyil ki, bu ölkələr zaman-zaman bəzi güc mərkəzlərinin təhdidləri ilə üzləşirlər. ABŞ ilə iqtisadi əməkdaşlığı genişləndirmək, investisiya qoyuluşunu artırmaq onlar üçün həm də siyasi dəstək, təhlükəsizlik qarantı anlamında qəbul olunur. Təsadüfi deyildir ki, Sammit zamanı region liderləri Trampa açıq şəkildə rəğbətlərini ifadə ediblər. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev deyib: "Siz sanki göydən göndərilmiş böyük lidersiniz".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə əlavə edib: "Bizdə sizə sülh prezidenti deyirlər".

### Sammitdə əldə olunan böyük razılaşmalar

Sammit çərçivəsində iqtisadi məzmunlu böyük razılaşmaların əldə olunması diqqət çəkir. Yüksəksəviyyəli görüşdə müzakirələrin əsas mövzusu Mərkəzi Asiyanın mineral ehtiyatlarına çıxış olub. Qazaxıstanın uran istehsalında lider mövqeyi, Özbəkistanın qızıl ehtiyatları və Türkmənistanın qaz resursları ABŞ üçün strateji əməkdaşlıq imkanlarını artırır.

"Özbəkistan üç il ərzində malların alışı və investisiyalar yolu ilə Amerika iqtisadiyyatına təxminən 35 milyard dollar sərmayə qoyacaq". Belə bir açıqlama ilə ABŞ Prezidenti Donald Tramp "Truth" sosial şəbəkə hesabında çıxış edib. "Amerika Birləşmiş Ştatları ilə Özbəkistan arasında inanılmaz ticarət və iqtisadi müqavilə imzalandığını elan etməkdən məmnunam. Növbəti üç il ərzində Özbəkistan əsas Amerika sənaye sahələrinə, o cümlədən vacib minerallar, aviasiya, avtomobil hissələri istehsalı, infrastruktur, kənd təsərrüfatı, enerji, kimya, informasiya texnologiyaları və digər sahələrə təxminən 35 milyard dollar, növbəti on il ərzində isə 100 milyard dollardan çox investisiya qoyacaq", - deyə Tramp vurğulayıb. O, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə minnətdarlığını bildirib və ABŞ-ın ölkə ilə "uzun və möhsuldar münasibətlərə" sadiq olduğuna əminlik ifadə edib.

ABŞ ilə Qazaxıstan arasında da əməkdaşlıq genişlənir. Hələ bundan əvvəl Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Nyu-Yorka işgüzar səfəri zamanı iki ölkənin iri şirkətləri 11 sənəd imzalayıb. Sənədlərə əsasən Qazaxıstan iqtisadiyyatına 5,2 milyard dollar investisiya qoyuluşu nəzərdə tutulur. Razılaşmalar nəqliyyat, logistika, enerji, informasiya texnologiyaları kimi strateji əhəmiyyətli sektorları əhatə edir.

Vaşinqtonda baş tutan Sammit çərçivəsində isə Qazaxıstan ABŞ ilə böyük mineral sazişinin bağlandığını elan edib. ABŞ-ın "Cove Kaz Capital Group" şirkəti Qazaxıstanla birgə sazişdə 70 faizlik pay əldə edəcək. Sazişin dəyəri 1,1 milyard dollar olacaq. ABŞ İxrac-İdxal Bankı (EXIM Bank) isə 900 milyon dollarlıq maliyyə ayırmaq niyyətini açıqlayıb.

Sammitdə Qazaxıstan, Tacikistan və Özbəkistana toplama 37 "Boeing" təyyarəsinin satılması da razılaşdırılıb.

Həmçinin Qazaxstan Milli Bankı və ABŞ-nin "Visa" transmilli şirkəti arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Məlumata görə, "Visa" ilə müqavilə rəqəmsal maliyyə infrastrukturunun inkişafı və Qazaxıstan bazarında müasir rəqəmsal ödənişlərin istifadəsinin gücləndirilməsi məqsədi ilə imzalanıb.

Sammit çərçivəsində liderlər səfər zamanı Qazaxıstan və ABŞ arasında dəyəri 17 milyard dollardan çox olan kommersiya sazişlərinin imzalanmasını alqışlayıblar. İki prezident arasında Vaşinqtonda keçirilən görüşdə Tramp ABŞ-in Qazaxıstanla çoxşaxəli, genişləndirilmiş strateji tərəfdaşlığı daha da gücləndirmək öhdəliyini bir daha təsdiqləyib.

Bütövlükdə, regionun mineral ehtiyatları Vaşinqtonun diqqət mərkəzindədir. Qeyd edək ki, külək turbinlərindən tutmuş, smartfonlara qədər istifadə olunan 17 nadir element Mərkəzi Asiya regionunda mövcuddur.

### Zəngəzur Dəhlizi (TRIPP marşrutu) diqqət mərkəzində

5+1 formatında keçirilən yüksəksəviyyəli görüşün müzakirə mövzularından biri də Zəngəzur Dəhlizi (TRIPP marşrutu) olub. Bəhs olunan marşrutun yaradılması ideyası Azərbaycana məxsusdur. Bu marşrut Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Ermənistan üzərindən maneəsiz nəqliyyat bağlantısını təmin etməklə yanaşı, avrasiyada tranzit daşımalarının optimallaşdırılması baxımından da müstəsna önəm daşıyır. Cari il avqustun 8-də Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutan görüşdə yeni marşrutun yaradılması ilə bağlı prinsipial razılıq əldə olunub və hazırda zəruri infrastrukturun yaradılması ilə bağlı məsələlər müzakirə olunur. Güclü və məsuliyyətli dövlət olan Azərbaycan yeni nəqliyyat bağlantısının ölkəmizin ərazisindən keçən hissəsində avtomobil yolunun və dəmiryolu xəttinin inşasını intensiv şəkildə davam etdirir. Hazırda layihələrin icrası son mərhələdədir.

Vaşinqtonda 5+1 formatında Zəngəzur Dəhlizinin (TRIPP marşrutunun) önəmi bir daha vurğulanıb. "Üç ay əvvəl mənim administrasiyam Ermənistan və Azərbaycan arasında bir sülh müqaviləsini imzaladı". Bu sözləri ABŞ Prezidenti Donald Tramp Ağ evdə Mərkəzi Asiya ölkələrinin liderləri ilə görüşdə deyib. O bildirib ki, bu səkkiz ayda başa vurduğu səkkiz müharibədən biridir. Bu tarixi razılaşma yeni Tramp marşrutunun tikintisini də ehtiva edir. Bu, çox gözəl bir şeydir. Onlar ona mənim adımı verdilər. Mən bunu həqiqətən yüksək qiymətləndirirəm. Əslində bu, böyük bir razılaşmadır. Bu, beynəlxalq sülh üçün yeni Tramp marşrutudur. Bu, dünyanın iqtisadi cəhətdən vacib regionundan keçən və Xəzər dənizinin o biri tərəfində ticarət fəaliyyətini artıracaq və Mərkəzi Asiya xalqlarına kömək edəcək bir yoldur. Mən əminəm ki bu gün burada olan hər bir ölkə razılaşma ilə ortaya qoyduğumuz fürsəti qəbul edərək sülhün imkanlarından faydalanacaq", - deyə Tramp qeyd edib.

"Qazaxıstan ABŞ Prezidentinin sülhməramlı təşəbbüslərini, o cümlədən Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunu dəstəkləyir". Bu fikri isə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Vaşinqtonda ABŞ prezidenti Donald Trampla ikitərəfli danışıqları zamanı deyib. Onun sözlərinə görə, TRIPP marşrutu Orta Dəhlizin gələcək inkişafına töhfə verə bilər.

### Əsas yollar Bakıdan keçir

5+1 formatının səmərəli işləməsi böyük dərəcədə burada Azərbaycanın da təmsil olunmasından asılıdır. Ölkəmizin həm ABŞ-la, həm də Mərkəzi Asiya dövlətləri ilə yüksək səviyyədə olan əlaqələri platformanın Azərbaycanla genişlənməsini mümkün edir. Eyni zamanda, əlverişli coğrafi yerləşməsi, müasir nəqliyyat infrastrukturuna malik olması respublikamızı 5+1 formatında diqqət mərkəzinə gətirir. Yeri gəlmişkən, Azərbaycanın vazkeçilməz rolu yüksəksəviyyəli rəsmilər və ekspertlər tərəfindən də etiraf olunur. Məsələn, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev hələ bundan əvvəl KİV-ə müsahibəsində Azərbaycanın iştirakının vacibliyinə diqqət çəkərək vurğulayıb: "Mən Azərbaycanın da belə bir vacib forumda iştirakını arzuolunan hesab edirəm. Çünki enerji ehtiyatları, əlverişli coğrafi mövqeyi, həmçinin Prezident İlham Əliyevin strateji vizyonu və siyasi iradəsi nəzərə alınmaqla, bu ölkə mahiyyət etibarilə regional nəqliyyat, logistika və enerji gücünə çevrilib və Cənubi Qafqazda və ondan kənarda mühüm rol oynayır. Azərbaycan Böyük Orta Asiyanın təbii bir hissəsi hesab edilə bilər".

ABŞ-da nəşr olunan "The Diplomat" analitik jurnalında dərc olunan "ABŞ və Mərkəzi Asiya: C5+1 nədir?" sərlövhəli məqalədə də Azərbaycanın önəminə xüsusi diqqət çəkilib. Materialda qeyd olunur ki, bu formatda indiyə kimi belə yüksək səviyyədə görüş keçirilməyib. Mərkəzi Asiya respublikaları nadir yer metalları, enerji və su resursları ilə olduqca zəngin bir regiondur. ABŞ-ın bu regiona nüfuz etməsi buradakı dövlətlərin Çin, Rusiya və Avropa İttifaqı arasında balanslaşdırılmış siyasət yürütmələrinə böyük imkanlar yaradacaq. Buradakı faydalı qazıntıları həyata keçirmək üçün ABŞ-ın texnologiyasına və sərmayəsinə böyük ehtiyac var. Yataqların işlənilməsi və dünya bazarına çıxarılması tərəflərin iqtisadi maraqları ilə yanaşı, siyasi maraqlarını da təmin edər. Mərkəzi Asiya respublikalarının Qərb bazarlarına çıxışı isə yalnız Azərbaycan vasitəsi ilə mümkündür. Xəzər dənizinin Azərbaycan sahilində yerləşən Ələt dəniz limanı Qərb bazarlarına çıxışı təmin edən yeganə vasitədir. Azərbaycan Orta Dəhlizin inkişafı üçün geniş infrastruktur layihələr həyata keçirib və tranzit yükdaşımaları üçün əhatəli dəmir yoluna malikdir.

Materialda nəzərə çatdırılır ki, Azərbaycan Prezidenti İlham Əliyev regional zirvə görüşlərində fəal iştirak edir, genişlənən Mərkəzi Asiya məkanının ayrılmaz hissəsi kimi Bakının imicini formalaşdırır. Azərbaycanın inkişaf etmiş nəqliyyat və enerji kommunikasiyaları sistemi var və bu sistem olmadan Orta Dəhlizin fəaliyyəti mümkün deyil. Məhz buna görə də amerikalı analitiklərin fikrincə, Azərbaycanın C5+1 formatına daxil edilməsi geosiyasi reallığın tanınması olardı: axı, Mərkəzi Asiya ilə Qərb arasında əsas enerji və ticarət yolları Bakıdan keçir. Belə genişlənmə formatın enerji və investisiya potensialını artıracaq və ona real strateji dərinlik verəcək. Buna görə də Vaşinqton üçün Azərbaycanın müşahidəçi statusu və ya genişləndirilmiş C6+1 konfiqurasiyasında iştiraka cəlb etməsi daha məntiqli addım ola bilər.

*Mübariz ABDULLAYEV*

# Çexiyanın yeni hökuməti...

## "Çex Trampı" Babiş əsas namizəddir

Çexiya Prezidenti Petr Pavel Baş nazir Petr Fialanın hökumətinin istefasını qəbul edib və mövcud kabinetə yeni tərkib formalaşana qədər ölkəni idarə etməyi tapşırıb. Dövlət başçısı bildirib ki, baş nazirin, hökumətin istefasını qəbul edirəm və eyni zamanda, yeni kabinet təyin olunana qədər onlara vəzifələri yerinə yetirməyi tapşıram. Daha sonra o, Fialadan bütün nazirliklərin yeni hökumətə rahat şəkildə ötürülməsini təmin etməsini xahiş edib. Qeyd edək ki, Petr Fialanın hökuməti Çexiya parlamentinin açılış sessiyasından sonra istefa vermək qərarına gəlib. Çexiyanın yeni hökumətinin dekabrın ortalarından gec olmayaraq vəzifələrinin icrasına başlaması planlaşdırılır.

### Təkbaşına hökumət alınmadı...



Xatırladaq ki, bu ilin oktyabrın əvvəlində Çexiyada baş tutan parlament seçkilərində ANO partiyası qalib gəlib. Amma əldə olunan mandatların sayı bu partiyanın təkbaşına hökumət qurmağa kifayət etməyib. Qeyd edək ki, ANO partiyası Ukraynaya yardımın azaldılmasına dəstək verməsi ilə tanınır. Sabiq Baş nazir Babişin rəhbərlik etdiyi partiya seçkidə 35 faiz səs toplamışdı. Hazırda istefa verən qərbyönlü koalisiya olan SPOLU isə 23 faizlə ikinci yeri tutmuşdu. Bundan başqa, Avropayönümlü STAN (11,1 faiz) və "Piratlar" (8,7 faiz), həmçinin sağ təmayüllü SPD (7,9 faiz) və "Avtomobilçilər" (6,8 faiz) partiyaları da yeni parlamentdə iştirak etmək hüququ qazanmışdı.

Babiş Çex Respublikasında yeddinci ən varlı şəxs sayılır və "Forbes" jurnalı onun sərvətini 3,3 milyard avro qiymətləndirir. ANO lideri 2017-ci ildən 2021-ci ilə qədər baş nazir vəzifəsində çalışıb və holdinq şirkəti Agrofert ətrafındakı korrupsiya qalmaqalı səbəbindən seçkilərdə məğlub olduqdan sonra istefa verib. O dövrdə Babiş kurort tikintisi üçün qanunsuz olaraq Aİ subsidiyaları almaqda ittiham olunurdu, lakin sonradan bəraət qazandı.

Politico analitikləri isə seçkidən həmən sonra bildirdilər ki, ANO-nun parlament seçkilərində qələbəsi Çex Respublikasının Avropa Birliyi və NATO ilə münasibətlərində gərginliyə səbəb ola bilər.

### 3-lü "hakim partiya"...

Qeyd edək ki, yeni hökuməti qurmaq üçün Babiş noyabrın 3-də ifrat sağçı SPD və "Avtomobilçi" partiyası ilə koalisiya müqaviləsi imzalayıb. Dörd həftəlik danışıqlardan sonra tərəflər gələcək hökumətin əsas proqram məqsədləri, eləcə də nazir portfellərinin partiyalar arasında bölüşdürülməsi barədə razılığa gəliblər. Xarici mətbuatın yazdığına görə, saziş siyasi prioritetləri, nazirlərin sayını və hökumət üçün kadr formalaşması prinsiplərini müəyyən edib. Növbəti addım hökumət tərkibi ilə bağlı təkliflərin təqdimatı olacaq və bundan sonra parlamentdə səsvermə baş tutacaq. SPD lideri Tomio Okamuranın parlamentin sədri olacağı gözlənilir. İlkin məlumatlara görə, Babişin kabineti 15 nazirdən ibarət olacaq ki, onların yarısı ANO, beşi SPD, ikisi isə Avtomobilçilər tərəfindən təyin olunacaq.

### Qatı Ukrayna əleyhdarları olan koalisiya...

Vurğulandığı kimi, Babişin rəhbərlik etdiyi ANO partiyası Ukraynaya hərbi yardımın azaldılması tərəfdarıdır və Kiyevin Aİ üzvlüyünə qarşı çıxır. Konkret olaraq, Babiş Çexiyanın Ukraynaya artilleriya sursatının tədarükü üçün "Çexiya təşəbbüsü" adlanan layihədə iştirakını dayandırmaq niyyətindədir. O, həmçinin Aİ-nin ekoloji gündəmini və miqrasiya paktını tənqid edir. Babişi tez-tez "Çex Trampı" adlandırırlar - o, dəfələrlə ABŞ Prezidentini "dost" adlandırıb. ANO-nun müttəfiqləri də eyni mövqeni bölüşür . SPD avroskeptik və miqrasiya əleyhinə ritorikası ilə tanınır. Bu partiya da Ukraynaya hərbi və maliyyə yardımının və ukraynalı qaçqınların qəbulunun qəti əleyhinədir. Seçki kampaniyası zamanı SPD sədri Okamura dəfələrlə Ukrayna əleyhinə, xüsusən də Çexiya Respublikasında ukraynalı qaçqınların hüquqlarının məhdudlaşdırılması ilə bağlı açıqlamalar verib. Digər müttəfiq isə Aİ-nin iqlim siyasətini tənqid edir.

*SADİQ*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# ZƏFƏR NƏĞMƏLƏRİ



## ZƏFƏR ŞEİRİ

Qalx ayağa, qoca tarix,
qalx ayağa, qarı düşmən,
Min illərin o başından
bu dünyanın Türkü gəlir.
Əllərində qılınc-qalxan,
dodağında türkü gəlir.
Ayağında dəmir çarıq,
çiynində boz kürkü gəlir.

Qalx ayağa, haqsız dünya,
gözün haqqı görsün bir də.
Bu zəfərin izi vardı
Sən gördüyün min illərdə

Günbatandan gündoğana,
tappır-tappır gedən atlar,
gumbur-gumbur gərənay-
lar, yadındamı, qoca tarix?!

Tanıdınmı, qoca tarix,
sənin hər səhifənə
qırmızı hərflərlə
müjdələr yazan Türkü?!
Bayrağının eşqinə
yağıya qan udduran,
səfləri pozan Türkü.
Qovğalarda sədlər yaran,
dinclikdə ozan türkü.

İndi də çox gözəldi,
“dam-daram-dam” ritminin
möhtəşəm sədaları.
Kəlbəcər də, Laçın da,
Ağdərə də, Şuşa da-
bizimdir nidaları.

Şəhidlər də, zəfər də,
bu sevinc də, kədər də-
bizimkidir, ana yurd.
Biz kədərlə sevinci
həmişə qoşa gördük.
Əziz günümüzdə də
Verib baş-başa, gördük.
Sınmadıq, əyilmədik,
Çox şükür bu günü də
Gördük, ey Vətən, yaşa!

## 8 NOYABR

8-i Noyabr Şuşa günüdü
təqvimdə düzəliş.
dualarda yenilik günü.
Biz bu duaları üzü göylərə
hər gün pıçıldadıq,
Vətən və Azadıq eşqinə.

8-i Noyabr
duaların qəbul olunduğu,
Tanrı lütfünün
yerə endiyi gün,
Şəhid ruhlarının
bayraqlıq parçadan
bayram paltarı
geyindiyi gün.

8-i Noyabr
Heyrətim, inamım, qüru-
rum,
bir az da heyranlığım.
Biz Şuşaya qayıtdıq, Şuşa
bizə qayıtdı.
Sənə şükür olsun,
ya inandığım!

*Ramiz Kərəm*

Sənə Zəfər yaraşır
Vətən müharibəsində
Biz qələbə qazandıq.
Bu gün Anım Günüdür
Qəhrəmanları andıq.
***
Tarix yazdı igidlər,
Hamısı əzizimizdir.
44 günlük müharibə,
Şanlı tariximizdir!
***
Dəmir yumruq düşmənin,
Mənfur başını əzdi.
Düşmənlər Qarabağda
Daim qala bilməzdi.
***
İndi azad Qarabağ
Günbəgün abadlaşır.
Mənim qədim torpağım!
Sənə bu çox yaraşır.
***
Bizə Zəfər yaşatdı,
İgid oğullarımız.
Hər birini anırıq,
Minnətdarıq hamımız!
***
Yaşa, Vətən, çox yaşa,
Yaraşır Zəfər sənə!
Alqış, min kərə alqış
Zəfəri bəxş edənə!

*Nicat İsmayılov*

Vətən alqışlayır
qədəmlərini,
Çoxdan gözləyirdik
bu böyük günü.
Dərbənd gülümsəyir
Xəzərə baxıb,
Elə bil açılıb Təbrizin eyni.

Adınla fəxr edib
coşur ürəklər,
Yeni Zəfərlərlə yaşa,
Vətənim!
Çoxdan tilsimdəydi
Şuşanın ruhu,
Ruhun azad oldu
Şuşa-Vətənim.

Dünya heyran oldu
bu qələbəyə,
Bu Zəfər dillərdən-dillərə
gəzər
Ulu Qarabağın xilası sanki,
Böyük İstanbulun
fəthinə bənzər.

Bu Zəfər yazılıb
şəhid qanıyla
Azadlıq naminə
yüz yol and içdik.
Düşmənin qurduğu
istehkamları,
Bir “Dəmir Yumruq”la
dağıdıb keçdik.

Yurduma tuşlanan
xain əllərə,
Bu Zəfər dərs oldu,
-etməyin xəta.
Tarixin ən şanlı
döyüşləriylə,
Zamanı da yendi
bu Zəfər hətta.

Yadlara əzəldən
gözdağı olub,
Türkün düşmən bağri
yaran ordusu.
Yolundan çıxanı
cəza gözləyir,
Tanrı ordusudur-Turan
ordusu...

Murov dağlarına
Ağrı əl edir,
Kəpəz Savalanın
görüşündədir.
Behiştdə rahat yat,
Xətai babam,
Vətən qələbələr
yürüşündədir.

*Rafiq Ələkbər*

Bir sabah oyandıq biz,
Sevinc dolu bir səsə.
Ucaldı Zəfər nəğməsi,
Yayıldı hər nəfəsə.

44 gün, 44 səhər,
Qələbəyə apardı.
Hər şəhidin ruhunda
Qarabağ nurla yandı.

Əsgərlərim, igidlər,
Siz yazdınız tarixi.
Göz yaşını sevinclə
Əvəz etdi milləti.
Şuşa səni salamlar,
Səngərdəki əllərlə.
O bayraq dalğalanır,
Hər dağda, hər ellərdə.

Bu gün Zəfər Günüdür,
Əbədi yad günümüz.
Qoruyacağıq daim
Səni, Vətən, birliyimiz!

*Mina Rəşid*

Şuşa səslər çağırır,
Dağların qucağından.
Güllər açır, bülbüllər,
Ötür azad sabahdan.

Göz yaşını sil indi,
Vətənim, gül, sevin sən.
Qarabağım azaddır,
Zəfər səninlədir, mən!

Qar dənəsi üstündə
Ayaq izim dayanır.
O izləri qoruyur
Əsgərimin canı var.

Hər daşında xatirə,
Hər ağacda bir nida.
“Yaşasın Azərbaycan!” -
Deyir dağlar hər yanda.

Bu torpaq qanla yazdı
Qürur dolu dastanı.
Qarabağ bizimdir, bax,
Zəfər etdi asmanı!

*Heydər Ələddinoğlu*

Qalib xalqın övladıyam,
Başım uca, alnım ağ.
Şuşa, Füzuli, Cəbrayıl,
Hamısı bir dastan çağ.

Səngərlərdə gecələr,
Ümidlə keçdi hər an.
Əsgərimin gözündə
Parlayırdı nurdan can.

Düşmənlər çəkildi
qorxudan,
Bayrağımız sancıldı.
O ulduz, ay, üç rənglə
Göylərimiz açıldı.

Qarabağ torpağında
Gül açır şəhid qanı.
Onların ruhu ilə
Yaşayır hər bir anı.

Zəfərimiz əbədidir,
Tarixdə qızıl yazı.
Azərbaycan, Vətənim,
Səninlə dolu sazı!

*Elvin Elxanoğlu*

Qış günündə üzdə
çiçək açdıran,
Gecəmizə gün
işığı saçdıran,
Yağıları el-obadan
qaçdıran
Bu zəfərin mübarəkdir,
ey vətən!

Səman geniş hey
uçduqca uçasan,
Torpağını ana kimi quca-
san,
Qələbənlə Qaf dağından
ucasan,
Bu zəfərin mübarəkdir,
ey vətən!

Olmaz imiş, sözdür,
dostu düşənin,
Dostu aldı qəlbin
“qəlbişüşənin”,
Söylənəcək yüz il
fəthi Şuşanın,
Bu zəfərin mübarəkdir,
ey vətən!

*Adilə Nəzər*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4962**
**Sifariş: 2263**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova